www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 yanvar 2016-cı il Çərşənbə № 19 (6340) Qiyməti 60 qəpik

Xəbər

## Kombinat direktorunun qətlini qadın təşkil edibmiş

yazısı səh.14-də

Gündəm

### Odundağ əməliyyatı ətrafında ilginc gəlişmə- ermənilər narahatdır



**Müdafiə Nazirliyi:** "Düşmən o qədər qorxu, səksəkə içindədir ki, hər tərəfdə onun gözünə Azərbaycan əsgəri görünür"

yazısı səh.9-da

### Müxalifətin birlik toplantısı yeni qarşıdurma yaratdı

yazısı səh.8-də

### İran prezidenti Avropada 17 milyardlıq saziş imzaladı

yazısı səh.12-də

### "Yeni Müsavat"ın özəl reportajını ATV xəbər niyə istinadsız verdi?

yazısı səh.4-də

### Sabiq ABŞ səfiri Azərbaycandakı etiraz aksiyalarından danışdı

yazısı səh.8-də

### İstiqrazlar yastıq altındakı pulları üzə çıxaracaqmı?

yazısı səh.12-də

### Azərbaycana krediti ağır şərtlərlə verə bilərlər

yazısı səh.10-da

### AMİP rəhbərindən ilginc inqilab açıqlaması

yazısı səh.8-də

### Baş bankir dollar krediti olanlara qara xəbər verdi

yazısı səh.10-da

### Daha iki bank bağlandı, ikisi isə birləşəcək...

yazısı səh.13-də

### Bakı kafelərində 1 fincan çay 2 manat oldu

yazısı səh.14-də

### Qar yanvarın 28-dək davam edəcək

yazısı səh.15-də

## Dövlət başçısı son bir ayda üçüncü müşavirəni keçirdi

# PREZİDENT MƏMURLARI BAHALI MAŞINLARDAN DÜŞÜRÜR: "CƏZALANDIRILACAQLAR"

Gözlənilir ki, dövlət başçısı yaxın vaxtlarda əhalin daha çox narazı salan icra başçıları haqda ciddi cəza tədbirləri görəcək- regionların sosial-iqtisadi inkişafına həsr olunmuş toplantıdakı çıxışında prezident buna açıq işarə edib; bəzi siyasi ekspertlər hesab edir ki, "Azərbaycanda bir nəfər də olsun toxunulmaz adam yoxdur" deyən dövlət başçısı yeni həbslərə qərar verə bilər




yazısı səh.5-də

## Avropa Şurasından Azərbaycana qarşı ikili mövqe

AŞ PA-nın qış sessiyasında Ermənistanı işğalçı kimi tanıyan Qarabağ qətnaməsi keçmədi - həmsədrlərin çağırışı "bəhrəsini" verdi; Sərsəng su anbarı ilə bağlı sənəd isə "balans" xətrinə qəbul edildi

yazısı səh.7-də



*Rəsul Quliyev:*

### "Prezident həm də baş nazir vəzifəsini icra etməlidir"

yazısı səh.5-də



### Ağamalı Sadiq Əfəndinin ailəsi evsiz qalıb

yazısı səh.4-də



### Jurnalisti döyüb öldürənlərin məhkəməsində Cavid Hüseynov ifadə verdi

yazısı səh.3-də

Qiymət Mehdiyev

# İntiqam Əliyevin məhkəməsi oldu

**«İntiqam Əliyevin səhhətində müəyyən problemlər var. Onun üçün bura gəlmək əlavə əziyyətdir. Həm də xahiş elədi nəzərinizə çatdırım ki, məhkəmədən gözləntisi olmadığına görə burada iştirak etmək istəmir». Bunu yanvarın 26-da Ali Məhkəmədə İntiqam Əliyevin kasasiya şikayətinə baxılarkən vəkili Cavad Cavadov dedi.**

Hakim Gülzar Rzayevanın sədrliyi ilə keçirilən məhkəmə iclasında Cavad Cavadov bildirdi ki, İntiqam Əliyevin işi üzrə istər ibtidai istintaq, istərsə də birinci və apelyasiya instansiya məhkəmələrindəki proseslər çoxsaylı qanun pozuntuları ilə müşayiət olunub.

Vəkil qeyd etdi ki, müdafiə tərəfinin onlarla vəsatəti təmin olunmayıb, təqdim etdiyi sübutlar heç bir əsas olmadan rədd edilib. İntiqam Əliyevin həbsi və məhkum edilməsi hüquq müdafiəçisi kimi fəaliyyətinə görə onu cəzalandırmaq məqsədi daşıyır.



İntiqam Əliyev Azərbaycandan Avropa Məhkəməsinə göndərilən 300-dən çox şikayətin müəllifidir. Bunlardan da 50-yə yaxını üzrə hüquqları pozulmuş vətəndaşların xeyrinə qərar çıxarılıb. Həmin qərarların 10-u İntiqam Əliyev həbsdə olduğu dövrdə çıxarılıb. İntiqam Əliyev prinsipial mövqeyinə görə dəfələrlə təltif olunub», - deyə vəkil vurğulayıb (azadliq.org).

**Vəkilin çıxışından sonra məhkəmədə fasilə elan olunub. Növbəti proses fevralın 24-nə təyin edilib.**

## Fevraldan ipoteka kreditləri yeni əsaslarla veriləcək



**Bunu Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib. "Report" xəbər verir ki, Elman Rüstəmov ipoteka kreditlərindən danışaraq bildirib: "Maliyyə Nazirliyi tərəfindən ipoteka kreditlərinin güzəşt və kommersiya hissələrinin genişləndirilməsi üzərində işlər aparılır. İpoteka kreditlərinin verilməsi üzrə digər ölkələrin təcrübəsi nəzərdən keçirilir və araşdırmalar aparılır. Yəqin ki, yaxın zamanda, ən geci gələn ay ipoteka kreditlərinin yeni əsasda verilməsinə başlanacaq".**



## Şagirdi döyən müəlliməyə şiddətli töhmət verildi

**"Xırdalan şəhəri 9 nömrəli orta məktəbdə şagirdi döyən ibtidai sinif müəllimsi Sevda Rüstəmovaya şiddətli töhmət verilib". (modern.az). Bu barədə Abşeron Rayon Təhsil Şöbəsi mətbuat xidmətinin rəhbəri Anar Nağıyev deyib. O qeyd edib ki, dünən saat 12-də məktəbin Pedoqoji Şurasında keçirilən iclasda müəllimə Sevda Rüstəmovaya şiddət töhmət elan olunub, məktəb direktoru Həcər İbrahimovaya isə xəbərdarlıq edilib:**

"Əgər bu kimi hal yenidən təkrarlanarsa, onda başqa tədbirlər görüləcək".

Xatırladaq ki, sosial şəbəkələrdə yayılan videokadrda Abşeron rayonu, Xırdalan şəhərindəki 9 nömrəli məktəbdə müəllimənin şagirdə zor tətbiq etdiyi görünür.

## Universitetlər birləşdirilir



**Azərbaycan təhsil nazirinin müavini Ceyhun Bayramov müsahibəsində gələcəkdə bəzi ali təhsil müəssisələrinin birləşdirilməsi prosesinin davam etdiriləcəyini istisna etməyib. C.Bayramov xatırladıb ki, bu proses çərçivəsində ötən il Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə birləşdirilib:**

"Həmçinin Müəllimlər İnstitutunun bir neçə filialları bağlanıb. Mingəçevir Müəllimlər İnstitutu ilə Mingəçevir Politexnik İnstitutu Mingəçevir Dövlət Universiteti adı altında birləşdirilib".

## Krım referendumunun icraçılarından biri istefa verdi

**Sevastopol şəhər qanunverici orqanının sədri, Krımın Rusiyaya birləşdirilməsini təmin etmiş referendumun əsas icraçılarından olan Aleksey Çalıy istefa verdiyini bildirib. "RİA Novosti" agentliyi bildirir ki, şəhər parlamentinin dünənki sessiyasında Çalıyın istefa ərizəsini qanunverici orqanın aparat rəhbəri Sergey Qradirovski oxuyub.**

Sevastopol parlamentinin mətbuat katibi Aleksey Filimonovun sözlərinə əsasən, reqlamentə uyğun olaraq, istefa ərizəsi yaxın günlərdə sessiyaların birində müzakirəyə çıxarılacaq.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:



## Bakıda 3 avtobus daşa basıldı: yaşlı qadın yaralandı

**"BakuBus" şirkətinə məxsus 3 ədəd 14 saylı avtobus içərisində sərnişinlərlə birlikdə daşa basılıb.**

Bu barədə "BakuBus"un mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova özünün facebook hesabında məlumat verib. (AzVision.az). Onun sözlərinə görə, hadisə Süleyman Rüstəm küçəsi ilə Dilarə Əliyeva küçəsinin kəsişməsində baş verib:

"Zərərçəkən var. Hadisə zamanı avtobusların birində yaşlı qadın yaralanıb. Daş onun başı tərəfə atılıb. Nəticədə avtobusun şüşə qırıntıları onun gözünə girib. Hazırda xəstə ev şəraitində müalicə edilir. Araşdırma getdiyindən hadisəni törədənlər barədə məlumat verə bilməsək də, məsələnin mahiyyəti ilə əlaqədar sizi məlumatlandırmaq istədik. İçərisi sərnişin dolu avtobusun şüşələrini daş-qalaq etməklə, sərnişinlərə bədən xəsarəti yetirmək məqsədi güdənlərin hansı məzhəbə qulluq etdiyini düşünmək belə ağrılıdır. İslah olunmaq üçün cəzanı həbsxana barmaqlıqları arxasında keçirməmək üçün davranışlarınıza ölçü qoyun.

"BakuBus" olaraq xəbərdarlıq etməyi borc bilirik ki, sərnişin təhlükəsizliyi bizim üçün prioritet olduğundan avtobuslarımızda törədilən hər qanunazidd hərəkətə, şiddətə görə birbaşa məsuliyyət daşıyırsınız və törədilən əməl də qanun çərçivəsində sona qədər araşdırılaraq cəzalandırılacaq".

Qeyd edək ki, bir neçə gün əvvəl də Bakı-Ağstafa qatarı daşa basılmış və nəticədə 6 nəfər xəsarət almışdı.



## "Azəriqaz"ın əməkdaşının onurğasını sındırdılar

**"Azəriqaz" İstehsalat Birliyinin qaz qaynaqçısı Məhərrəmov Məhərrəm Qamət oğlu Xəzər rayonu Türkan qəsəbəsi sakinləri tərəfindən döyülüb. "Report"un "Azəriqaz"ın mətbuat xidmətindən əldə etdiyi məlumata görə, zərərçəkmişə ağır bədən xəsarətləri yetirilib.**

Məlumata görə, yanvarın 25-də birliyin əməkdaşları tərəfindən Xəzər rayonu Türkan qəsəbəsində təbii qazdan istifadə qaydalarının pozulmasının qarşısının alınmasına yönəlmiş növbəti yoxlamalar aparılıb. Aparılan yoxlamalar zamanı Xanlar küçəsində yaşayan Mayılov Məmmədağanın həyatyanı sahəsində yerləşən istixanaya sayğacdan kənar çəkilmiş qaz xətti aşkar olunub və qeyri-qanuni qaz kəmərinin ləğvi zamanı Türkan qəsəbəsi, Xanlar küçəsində yaşayan Mayılov Məmmədağa, onun övladları Samir və Rəfael tərəfindən birliyin Təmir-tikinti İdarəsinin 4 saylı Qəza-təmir bərpa xidmətinin qaz qaynaqçısı Məhərrəmov Məhərrəm Qamət oğlu döyülərək, ona ağır bədən xəsarətləri yetirilib. Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilən "Azəriqaz" əməkdaşına ilkin olaraq onurğa sütununun 12-ci fəqərəsinin qırılması diaqnozu qoyulub.

Faktla bağlı Xəzər RPİ 1-ci Polis Bölməsi tərəfindən araşdırma aparıldığı açıqlanıb.

## Vasif Talıbov daha bir məmuru işdən çıxardı

**Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini vəzifəsindən azad edilib. Moderator.az xəbər verir ki, Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov bununla bağlı sərəncam imzalayıb. Sərəncamla Fariz Nəriman oğlu Bağırov Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini vəzifəsindən azad olunub.**

Qeyd edək ki, V.Talıbovun 22 yanvar tarixli sərəncamı ilə F.Bağırov Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi təyin olunub.

## Bakıda univermaq çökdü

**Bakıda univermaq çöküb. "Report" xəbər verir ki, hadisə Suraxanı rayonu ərazində yerləşən köhnə univermaqda baş verib. Belə ki, yağan qar nəticəsində univermağın dam örtüyü ağırlığa tab gətirməyib çöküb.**

Hadisə nəticəsində 3 nəfərin dağıntılar altında qaldığı bildirilir. Hadisə yerinə Təcili Tibbi Yardım və Fövqəladə Hallar Nazirliyinin xilasedicilərı cəlb edilib. Məlumata görə, xəsarət alan 36 yaşlı Elşad Abdullayev və 30 yaşlı Bəhruz Məmmədov 3 saylı Suraxanı rayon xəstəxanasına yerləşdirilib.

## Peskov Putinin arvadından danışmaq istəmədi

**Kremlin mətbuat katibi Dmitri Peskov Putinin keçmiş arvadı Lyudmila Putina haqda jurnalistlərin verdiyi suala cavab verməkdən imtina edib.**

Avropa.info xəbər verir ki, o bildirib ki, Lyudmila Putinanın şəxsi həyatını şərh etmək səlahiyyətinə malik deyil.

Jurnalistlərin marağına səbəb mətbuatda Lyudmila Putinanın yenidən ərə getməsi və familiyasını yeni ərinin familiyasına dəyişməsi haqda məlumatın getməsi olub.

"Bilirsiz ki, Lyudmila Aleksandrova Vladimir Vladimiroviçin keçmiş arvadıdır və boşanıb. Buna uyğun olaraq, mən Lyudmila Aleksandrovna və onun şəxsi həyatı haqda hər hansı şey danışmaq səlahiyyətində deyiləm" - Peskov belə deyib.

Xatırladaq ki, 30 il nikahda olduqdan sonra Putin və arvadı 2013-cü ilin 6 iyununda boşanma qərarlarını açıqlamışdılar.

## Qızıl bir az da bahalaşdı

**Qızıl etibarlı və təhlükəsiz aktiv olduğundan ona tələbat günü-gündən artmağa başlayıb. Qiymətli metal günə bahalaşma ilə başlayıb. Anspress xəbər verir ki, fond birjalarında qızılın qiymətində 0.68%, yəni 1113.1 dollar bahalaşma müşahidə olunub. Bundan sonra qızılın bir unsiyası 35.82 dollara qalxıb.**

Qızılın qiymətinin bugünkü hərraclarda qalxmasına səbəb dünya bazarında neftin qiymətinin enməsi fonunda etibarlı və təhlükəsiz aktivlərə tələbatın güclənməsi olub. Belə ki, neftin qiymətinin mənfi dinamikada inkişaf etməsi investorların qızıla və qiymətli metallara olan marağını bərpa edib.

Neftin qiymətində son günlər baş verən dalğalanmalardan sonra, həftəsonu qara qızılın qiymətində bahalaşma müşahidə edilib. Lakin bu gecə qiyməti enən qara qızıl günortaya doğru yenidən bahalaşmağa başlayıb. Səhər saatlarında 29.55 dollara satılan "Brent" markalı neftin bir barelinin qiyməti günün sonunda 30.28 dollara qalxıb. "Texas" markalı neftin qiyməti isə bir bareli üçün 29.52 dollardan 30.16 dollara qalxıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016

**Yanvarın 26-da Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevi döyüb öldürənlərin növbəti məhkəmə prosesi oldu. Hakim Eldar İsmayılovun sədrliyi ilə davam edən prosesdə şahidlər ifadə verdilər.**



# Jurnalisti döyüb öldürənlərin məhkəməsində Cavid Hüseynov ifadə verdi

## Futbolçu hadisədən xəbərsiz olduğunu iddia etdi; bu gün sabiq kapitanın da məhkəməsi başlayır

İlk olaraq, hadisə ilə bağlı tutulan, amma cinayət işi ayrı icraata götürülən "Qəbələ" futbol klubunun kapitanı Cavid Hüseynovun ifadəsi dinlənildi. O, hadisə haqda dedi: "Avqustun 8-də evdə ailəmlə oturmuşdum. Bibim oğlu Elşən WhatsAppda mənə yazdı ki, xəbərə bax, sənin haqqında pis yazıblar. Dedim ki, eybi yoxdur, jurnalistdir, qoy yazsın. O dedi ki, artıq Rasimlə danışmışam, məsələyə mən də qarışmışam. Rasimin ona ana söyüşü söydüyünü bildirdi. Elşəndən Rasimin nömrəsini alıb, ona zəng elədim. Özümü təqdim etdikdən sonra onunla uzun müddət danışdıq. Söhbətimiz normal keçdi. Facebookda belə status yazmasının səbəbini soruşdum. O, belə əsaslandırdı ki, göstərdiyin əl hərəkəti ilə yunan həmkarıma qarşı hörmətsizlik etmisən. Məsələni ona izah elədim. Hərəkətimdə heç bir hörmətsizlik etmədiyimi, həmin işarə ilə Türkiyə ilə qardaş olduğumuzu göstərdiyimi onun diqqətinə çatdırdım. O da məni başa düşüb, üzr istədi. Dedim ki, mümkün olsa, mənimlə danışdığını, məsələni səhv anladığın üçün üzr istədiyini sosial şəbəkələrdə yaz. Ardınca Elşənə zəng eləyib dedim ki, heç nəyə ehtiyac yoxdur, Rasimlə danışıb məsələni bağlamışıq, o məndən üzr istəyib.

**Futbolçu jurnalistin döyülməsi və ölməsini belə şərh etdi:** "Elşəngilin Rasimlə görüşə getdiyindən, aralarında nələrin baş verdiyindən xəbərim olmayıb. Məşqdən çıxmışdım, Elşən mənə zəng elədi ki, Rasimlə görüşdüm, ona təpik vurdum. Rasimin qaçdığını dedi. Elşən məni saymadığına görə onu çoxlu danladım. Sonra gördüm ki, saytlar yazıb, Rasim Əliyevi Cavid Hüseynovun qohumları döyüb, o, xəstəxanaya düşüb. Elşənə dedim ki, necə vurmusansa, Rasim xəstəxanaya düşüb. Rasimin yanına xəstəxanaya getdim. Orada Rasimlə görüşdüm. O dedi ki, sənin bibioğlun məni çay içməyə dəvət elədi və döydü. Orda bildim ki, Rasimin telefonu və pulqabısı hadisə yerində yoxa çıxıb. Rasimdən üzr istəyib xəstəxanadan çıxdım. Hadisənin səhəri gün Qəbələyə gedirdim. Yolda qardaşım Almaniyadan zəng elədi ki, Rasim ölüb. Tələsik Elşənə zəng elədim ki, özünə vəkil tut, get, təslim ol. Hər şeyi olduğu kimi danışmasını tapşırdım. Rasimlə danışanda hər şey yaxşı idi. Bilsəydim ki, onu orda yaxşı müalicə eləmirlər, öz hesabıma hara lazımdısa ora aparıb, müalicə etdirərdim".



**Futbolçunun ifadəsinin ardından bibisioğlu Elşən İsmayılov bildirdi ki, hadisəyə görə digər həbs edilənlərin heç bir günahı yoxdur:** "Uşaqlar davaya getdiyimi

## Cavid Hüseynov: "Hara lazımdısa ora aparıb, müalicə etdirərdim..."

bilmirdi. Elə bilirdilər ki, çay içib söhbət edəcəyik. Mənə ana söyüşü söymüşdü, bu da mənə pis təsir eləmişdi".

Daha sonra hadisə baş verən vaxt həmin ərazidə olan iki nəfər şahidin ifadəsi alındı. Ardınca hakim Eldar İsmayılov prosesdə fevralın 2-nə qədər fasilə yarandığını elan etdi.

**Məhkəmədən sonra zərərçəkmiş tərəfin vəkili Fariz Namazlı açıqlama verdi:** "Cavid Hüseynovdan sonra sonra iki şahid dindirildi. Onlardan biri hadisə vaxtı "Bayıl" marketin yanında olub. O dedi ki, hadisənin sonunu görüb. 3-4 nəfərin Rasimi döydüyünü, onun da qaçdığını bildirdi. Digər şahid isə Elşən İsmayılov və Cavid Hüseynovun qohumu idi. Deməli olar ki, hadisəyə aidiyyəti olmayan şəxs idi. O bildirdi ki, Rasimin ölümü barədə hadisənin səhərisi gün məlumat tutub. Onu da qeyd etdi ki, hadisəni eşidən kimi Elşənin evinə gedib, onun peşmançılıq çəkdiyini görüb. Ona hüquq-mühafizə orqanlarına təslim olmağı məsləhət görüb. Digər şahidlər məhkəmə iclasına gəlmədiklərinə görə prosesdə fevralın 2-nə qədər fasilə yarandı. Növbəti iclasda digər şahidlərin ifadələri alınacaq".

## Mərhumun atası: "Hər kəs bilir ki, hadisə Cavidə görə olub"



**Mərhum jurnalistin atası Məmmədəli Əliyev də açıqlama verdi:** "Bu prosesdə yalnız şahidlərin ifadələri oldu. Cavid Hüseynov elə danışdı ki, guya onun günahı olmayıb. Davanın da onun üstündə olmadığını, bu barədə heç kəsə tapşırıq vermədiyini iddia edir. Amma hər kəs bilir ki, hadisə Cavidə görə olub. Yəni hadisənin məğzi odur. Deyir ki, Rasim söyüş söyüb. Elşəni oğlum tanımırdı, ona söyüş söyə bilməzdi. Bir də Rasim söyüş işlədən deyildi. Övladım olduğuna görə demirəm. Cavid absurd ifadələr verdi. O, tülkü kimi həqiqətlərdən qaçır. Yanvarın 27-də onun məhkəməsi başlayır. İşini ayrı icraata götürüblər. Görünür, hansısa dairələrin maraq dairəsində olub. Cavid bu məhkəmədə, yəni 5 nəfərlə birlikdə mühakimə olunmalı idi. Ona cəza da burada verilməli idi. Buna, sadəcə, təəssüflənirik. Yəqin ki, buna susmayacağıq. Gələcəkdə müəyyən planlarımız var. Çıxarılacaq qərar üzrə hərəkət edəcəyik".

**Qeyd edək ki, Cavid Hüseynovun məhkəmə prosesi bu gün Səbayel Rayon Məhkəməsində saat 12:00-da başlayacaq. Hakim Elmar Rəhimovdur.**

❑ **Cavanşir ABBASLI**

# Ramil Usubov geniş kollegiya iclası keçirdi

**Daxili İşlər Nazirliyində (DİN) 2015-ci ilin yekunlarına həsr edilmiş geniş kollegiya iclası keçirilib.**



Ramil Usubov

"Report" xəbər verir ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun sədrliyi ilə keçirilən iclasda kollegiya üzvləri, baş idarə, idarə və xidmət rəisləri, məsul əməkdaşlar, Azərbaycanın bütün şəhər və rayon polis idarə, şöbə və bölmələrinin rəisləri iştirak ediblər.

Tədbirdə hesabatlar dinlənilib. İclasda 2015-ci ildə ölkədə cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, mülkiyyət əleyhinə olan cinayətlərin qarşısının alınması sahəsində görülən tədbirlər, həmçinin 2016-cı ildə görüləcək işlər, qarşıda duran vəzifələr müzakirə olunub.

# Vidadi Zeynalovun həbs müddəti uzadıldı



Vidadi Zeynalov

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq Aparat rəhbəri, hazırda həbsdə olan Vidadi Zeynalovun həbs müddəti uzadılıb. Bu barədə V.Zeynalovun vəkili Muğan Əliyev məlumat verib. Vəkil bildirib ki, V.Zeynalov barəsində seçilmiş 3 aylıq həbs-qətimkan tədbirinin müddəti yanvarın 26-da başa çatmalı idi. Məhkəmənin qərarı ilə V.Zeynalov barəsində seçilmiş həbs müddəti fevralın 21-nə qədər uzadılıb.**

V. Zeynalovla mütəmadi görüşdüyünü deyən vəkil qeyd edib ki, müvəkkilinin həbs müddətinin uzadılmasından apelyasiya şikayəti vermək fikri yoxdur: "Vidadi Zeynalovun saxlanma şəraiti və səhhətindən də heç bir şikayəti yoxdur. Vəziyyəti normaldır".

# Daha iki bank bağlandı, ikisi isə birləşəcək...

**Mərkəzi Bankın İdarə Heyətinin 06/1 və 06/3 nömrəli qərarları ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə "Yunayted Kredit Bank" ASC və "NBCBank" ASC-nin bank lisenziyaları ləğv edilib.**

AGBANK

DəmirBank

"Banklar haqqında" Qanunun 51-ci və 52-ci maddələrinə uyğun olaraq 26.01.2016-cı il tarixdən banklara müvəqqəti inzibatçı təyin edilib.

Virtualaz.org saytının xəbərinə görə, Mərkəzi Bank bildirir ki, "NBCBank" ASC və "Yunayted Kredit Bank" ASC-də Əmanətlərin Sığortalanması Fondu tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcəkdir.

"AGBank" ilə "DəmirBank" birləşəcək. Bunu APA-ya açıqlamasında Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin sədri Elman Rüstəmov deyib. O qeyd edib ki, artıq hər iki bank arasında konsolidasiya ilə bağlı ilkin protokol imzalanıb.

"Bu addım Azərbaycanın bank sektorunun sağlamlaşdırılması istiqamətində atılan addımlardan biridir", - deyə AMB sədri bildirib. Yaxın perspektivdə hansısa bankın lisenziyasının ləğv olunması ilə bağlı suala cavab verən E.Rüstəmov bildirib ki, bu proses davam edəcək.

# Ağcabədi sakini borca görə özünü asdı

**Ağcabədidə intihar hadisəsi baş verib. Hadisə yanvarın 25-də rayonun Səməd Vurğun küçəsində qeydə alınıb. ANS PRESS-in məlumatına görə, 237 saylı evdə yaşayan rayon sakini Zeynal Namazov özünü asıb. 40 yaşlı Zeynal Namazov Səlim oğlunun meyiti ailə üzvləri tərəfindən aşkar edilib.**

Qonşuların sözlərinə görə, Zeynal Namazov borcu olduğuna görə həyatına qəsd edib. Onun üç övladı var.

Hazırda faktla bağlı Ağcabədi Rayon Prokurorluğunda araşdırma aparılır. İntiharın dəqiq səbəbləri də araşdırmalardan sonra məlum olacaq.



# İsveçdəki qətl Rusiyada olsaydı...

**Xalid KAZIMLI**

**Avropanın ən humanist ölkələrindən biri olan, dünyanın dörd bir yanından gələn qaçqınlara məmnuniyyətlə qucaq açan İsveçdə dəhşətli hadisə baş verib: 15 yaşlı qaçqın gənc 22 yaşlı məmur qadını bıçaqlayaraq öldürüb.**

Bu, İsveç üçün "dəhşətli hadisə"dir, qatilin tərk etdiyi ölkə üçün adi, sıradan, gündəlik olaydır. Hər gün yüzlərlə adamın küçədə güllələndiyi, edam edildiyi, partladıldığı ölkədə, bölgədə bıçaqla törədilmiş qətl elə də dəhşətli deyil, bu hadisə heç medianın xəbərlər bülletenində belə yer almır.

Ancaq İsveçdə əhali çox həyəcanlıdır, bütün media qurumlarının əsas xəbəri bu qətldir. Baş nazir qətlin törədildiyi miqrant mərkəzinə şəxsən gedib. İctimaiyyət belə halların təkrarən baş verəcəyinə görə əndişəlidir.

Burada bir neçə maraqlı detal var. Birincisi, aldığı xəsarətdən xəstəxanada vəfat edən zərərçəkənin adı göstərilmir. İsveç mediası hesab edir ki, bu, düzgün deyil. Bir də qatilin kimliyi, hansı ölkədən olduğu açıqlanmır, eləcə, yaşı göstərilir.

Bu da boşuna deyil. İsveç hökuməti qorxur ki, qatilin hansı ölkədən gəlmiş olmasının açıqlanması həmin ölkədən olan digər miqrantların, yaxud da uzun illər əvvəl o ölkədən gələrək vətəndaşlıq almış şəxslərin həyatı üçün təhlükəli ola, onlara qarşı ksenofobiya dalğası yarada bilər.

Bu, İsveç dövlətinin bəşəri dəyərlərə, humanist prinsiplərə nə dərəcədə sadiq olmasının göstəricisidir.

Bununla belə, etiraf olunmasa da, aydın məsələdir ki, həmin 15 yaşlı qatil Yaxın Şərq ölkələrindən birinin, bir az da konkretləşdirsək, Suriyanın vətəndaşıdır. Çünki son bir ildə Almaniya və İsveçə qaçqın mühacirlər ən çox bu ölkədən gəlir və onların arasında bu kimi tənha gənclər və yeniyetmələr daha çoxdur.

Ötən ilin noyabr ayında mən İsveçdə, Stokholmun mərkəzi rayonlarının birində yerləşən və miqrantların qəbulu ilə məşğul olan ofisdə olarkən bəzi maraqlı məqamlar müşahidə etdim.

Aydınca görünürdü ki, İsveç dövləti və aidiyyəti məmurlar miqrantlara dözümlü, rəhmdil yanaşır, onların zülmdən, labüd ölümdən qaçıb gəldiklərini anlayır, var qüvvələri ilə bu binəsib insanları yerbəyer etməyə çalışırlar.

O da bəlli idi ki, hökumət öz beynəlxalq öhdəliklərini yerinə yetirərkən və ali humanizm dəyərlərinə sədaqət göstərərkən, ölkənin yerli əhalisinin mümkün kəskin reaksiyasını da hesablayır, bu ürəyiaçıqlığının xalqda doğurduğu qıcığı mümkün qədər səngitməyə çalışır.

Bu üzdən idi ki, miqrantların saxlanıldığı düşərgələrin yeri, ünvanı göstərilmirdi. Əgər qaçqınlardan kimsə ağır cinayət törədibsə (belə hallar tez-tez olur), adamın milliyyətinə, hansı ölkədən olmasına vurğu edilmirdi.

Biz öz regionumuzda adətən başqa cür görmüşük. Məsələn, Rusiyada kimisə qətlə yetirənin saçının qara olması kifayət edir ki, qatilin "Qafqaz millətindən olan şəxs" olması barədə kütləvi informasiya vasitələrində xəbər getsin və Azərbaycandan, Gürcüstandan, Ermənistandan, eləcə də Dağıstan və digər Qafqaz diyarlarından olan şəxslər mərcək altına alınsın.

Rusiya rəhbərliyi və mediası bu cür xəbərləri intensiv şəkildə yaya-yaya ölkə boyunca "cani qafqazlı" obrazı yaradıblar və "dazbaşlar" adlandırılan neo-faşist qüvvələrinin formalaşmasını təmin ediblər. Proses hazırda da davam edir. Demək olar ki, bütün cinayətlərdə "Qafqaz millətindən olan şəxslər"in izi axtarılır.

İsveçin bu cür mədəni və humanist münasibətindən sui-istifadə halları isə bəs qədərdir. Müxtəlif yollarla İsveçə axışıb gəlmiş, ölkənin hər tərəfindəki düşərgələrdə yerləşdirilmiş mühacirlər qısa müddətdən sonra özlərini bu ölkənin sahibiymiş kimi aparır, dövlətin qanunlarını heçə sayır, öz güzəranlarını daha çox əyri yollardan istifadə edərək təmin etməyə çalışırlar.

Rəsmi məlumatlara görə, İsveç təkcə ötən il 150 mindən çox qaçqının sığınacaq ərizəsini qəbul edib. Bu fakt onsuz da ölkə əhalisində narahatlıq yaratmışdı, qətl hadisəsi isə narahatlıqla yanaşı hiddət də doğurub.

Təbiidir. Heç kəs uzaq ölkələrdən gəlib onun cənnət ölkəsinə sığınmış adamların onların sakit həyatına bıçaqla, partladıcı maddə ilə müdaxilə etməsini istəmir.

Güman ki, gələcək seçkilərdə miqrantlara qarşı olan partiya qalib gələcək. Beləcə, bir qəzəbli gəncin səfeh hərəkəti minlərlə mühacirin nicat qapısını bağlayacaq.

# "Yeni Müsavat"ın özəl reportajını ATV xəbər niyə istinadsız verdi?

**İki gün öncə "Yeni Müsavat" ciddi plagiatlığın qurbanı olub. Özü də bu dəfə sayı gün-gündən, göbələk misalı artan saytlar yox, ATV kanalının xəbərlər proqramı tərəfindən. Reportyorlarımızın uzun zamandır izinə düşdüyü və böyük əziyyət hesabına hazırladıqları "Bakıda vətəndaşları aldadan pul fırıldaqçıları peyda olub" başlıqlı yazısı əsasında süjet hazırlayan həmkarlarımız heç bir yerdə "Yeni Müsavat"a istinad etməyiblər.**



**Azər Ayxan:**
"İnanmaq istəyərdim ki, bu, özfəaliyyətdir və ATV rəhbərliyinin bundan xəbəri yoxdur"



**Vaqif Aydınoğlu:**
"İstinad bir mədəniyyətdir, bu, bir texniki xəta olub"

İstinad bir tərəfə, ATV-çilər əməkdaşlarımızın hadisə ilə bağlı çəkdiyi və müsavat.com-da yayılan gizli videoçəkilişdə də "kosmetik" dəyişikliklər ediblər. Belə ki, süjeti yayımlayan həmkarlar ekranın sol küncündə, eləcə də aşağısında yer alan "Yeni Musavat" sözü yazılan lenti də yox ediblər. Xəbərin mətnində isə bu mövzuya toxunmalarının mənbəyini "sosial şəbəkədə yer alan xəbərlər" olaraq göstəriblər.

Hər gün qarşımıza çıxan, bəzi saytlar tərəfindən gündəlik iş qrafikinə çevrilən, istinadsız xəbər yayma ənənəsini indi də televiziyaçılar həyata keçirir. Üstəlik, ortada ciddi əmək və eksklüzivlik olan bir layihə mənimsənilib.

**"Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan dedi ki, ATV-nin xəbərlər proqramında "Yeni Müsavat" və müsavat.com-un reportyorlar qrupunun müəllifi olduğu reportajın istinadsız verilməsini talehsiz xəta hesab edir. Müsahibimizin fikrincə, ATV xəbərin peşəkar heyətinin bilərəkdən və qəsdən bu addıma gedəcəyinə inanmır:** "Onlar özləri də bizimlə telefon əlaqəsi saxladılar və təəssüflərini bildirdilər ki, xəbərləri olmadan texniki heyət belə yanlışa yol verib. Mən də inanmaq istəyərdim ki, bu, özfəaliyyətdir və ATV rəhbərliyinin bundan xəbəri yoxdur. Onlar etiraf etdilər ki, bu, yaxşı hal deyil və eksklüziv material hər saat olmur. Belə eksklüziv material hazırlananda da ona istinad edilməməsi müəllifə, eləcə də onu yayan KİV rəhbərinə pis təsir edir. Bu xəbəri ikinci-üçüncü kateqoriyalı sayt hazırlayıb versəydi, ATV kimi nüfuzlu kanalın ona istinad etməməsini hardasa başa düşərdim. Bunu qarşı tərəf də bizimlə telefonla danışanda etiraf etdi ki, "Yeni Müsavat" kimi nüfuzlu mətbu orqanın materialına istinad etməmək mümkün deyil. İstinad bütün tələblərə görə olmalıdır. İnanıram ki, növbəti dəfə belə üzücü və qeyri-peşəkar yanaşma ilə rastlaşmayacağıq. ATV xəbər rəhbərliyi bu cür məsələlərdə bir qədər də məsuliyyəti artıracaq və reportyorlara lazımi göstərişi verib, bu işlərə nəzarəti gücləndirəcək".

**ATV Xəbərlər Departamentinin rəhbəri Vaqif Aydınoğlu isə "Yeni Müsavat"a açıqlamasında baş verənləri anlaşılmazlıq adlandırıb. Deyib ki, istinad onların da yaralı yeridir:** "Bir çox elektron KİV-lər və portallar da bizim informasiyanı götürür, istinad etmədən yayımlayırlar. İstinad bir mədəniyyətdir və həmkarlara münasibətdə buna ciddi riayət etməliyik. Sözügedən məsələ ilə bağlı baş verənlər isə texniki heyətin yanlışlığıdır".

Xatırladaq ki, sözügedən reportaj 8-ci kilometr bazarında sadə vətəndaşların əlində olan 5-10 manatını oğurlayan şəxslər barədə hazırlanmışdı. Gizli çəkiliş vasitəsilə üzə çıxarılan bu fakt əsasında məlum olmuşdu ki, bu şəxslər özlərini meyvə-tərəvəz satıcısı kimi göstərib, əslində fırıldaqçılıqla məşğul olurlar. Həmin adamlar müştərilərə böyük pul əsginazlarını xırdalamağı təklif edirlər. Bu təkliflə razılaşan vətəndaşların əksəriyyəti mütləq aldanır. Onlara hər dəfə xırdaladıqları pul 1-2 manat, bəzən hətta 5-10 manat əskik olaraq qaytarılır.

❑ **Sevinc TELMANQIZI**

# Ağamalı Sadiq Əfəndinin ailəsi evsiz qalıb

## "Yasamal" MTK-nın qanunsuzluqları araşdırılmır

**Fevralın 4-də Yasamal Rayon Məhkəməsində Orxan Əfəndiyevin iddiası üzrə proses davam etdiriləcək. Orxan Əfəndiyevi məhkəmə qapısına aparan ədalət axtarışıdır. O, 2012-ci ildə mənzil şəraitini yaxşılaşdırmaq üçün "Yasamal" MTK-ya üz tutub. Və böyük qanunsuzluqlarla üz-üzə qalıb.**



Orxan Əfəndiyev jurnalistikamızın dəyərli nümayəndəsi, milli-azadlıq hərəkatının öncüllərindən biri, mərhum Ağamalı Sadiq Əfəndinin oğludur. Orxan Əfəndiyevin sözlərinə görə, 2012-ci ildə atasından qalma mənzili də, üstəlik, banklardan götürdüyü kreditlər də əlindən gedib: "Məcburiyyət qarşısında ata evimizi satdıq, 2 bankdan pul götürüb aparıb "Yasamal" MTK-ya verdim. Bu gün də kirayələrdə yaşayıram. MTK ilə aramızda müqavilə bağlandı, mənə maliyyə arayışı verdilər. Çünki mənzilin pulunu - 55 min 200 manatı tam ödəmişdim. Dedilər ki, binanı 3 aya təhvil verəcəklər. Hər dəfə müddət bitəndə gedirdim, deyirdilər ki, 3 ay sonra binanı təhvil veririk. Təxminən 1 il 3 ay əvvəl növbəti dəfə binaya gedəndə gördüm ki, mənzilimə qapı qoyublar. Orada Faiq adlı MTK işçisi var, ona yaxınlaşdım. Soruşdum ki, mənzilimə qapı niyə qoyulub? Cavab verdi ki, MTK-ya borcunuz var. Əlimdə müqavilə, maliyyə arayışı olduğunu diqqətini çatdırdım ki, borcum yoxdur. Bundan sonra da dedi ki, mənzilini başqasına satmışıq. Etirazımı bildirdim, şikayətlər etdim, xeyri olmadı. Polisə, prokurorluğa yazdıq, nəticə olmadı. Üstəlik, MTK-da məni hədələdilər, dedilər ki, binaya gəlmə".

**O.Əfəndiyev baş verənlərdən sonra məhkəməyə üz tutub. Nümayəndəsi Yaşar Ağazadə deyir ki, "Yasamal" MTK-da qanunsuzluqla üzləşən təkcə O.Əfəndiyev deyil. 100-ə yaxın vətəndaş faktiki zərərçəkmişdir. O.Əfəndiyevə gəldikdə isə onun işi üzrə Yasamal Rayon Məhkəməsində "Mənzildən istifadə hüququna yaradılan maneənin aradan qaldırılması" iddiası üzrə araşdırmalar sona çatmaq üzrədir:** "Hazırda iş hakim Rafael Əliyevin icraatındadır. Cavabdeh tərəf "Yasamal" MTK-nın sədri Cahangir Alışovdur. Orxan Əfəndiyev MTK-dan evi alıb və mənzilin dəyərini tam ödədikdən sonra ona maliyyə arayışı verilib. Sonradan isə onun aldığı mənzilə qapı quraşdırılıb. Müqavilədə isə mənzilə MTK tərəfindən qapı quraşdırılması nəzərdə tutulmayıb. MTK-nın işçi Faiq də Orxana deyib ki, sədr Cahangir Alışov mənzili başqa şəxsə satıb. Əvvəlcə dedilər ki, mənzilə görə borc var, ona görə qapı qoyulub. Sonra araşdırma aparıldı, məlum oldu ki, borc yoxdur. Bundan sonra da mübahisə qarşı tərəfin qanunsuzluqlarına görə davam etdi və məhkəməyə müraciət etdik. İddiamız tam haqlıdır. "Yasamal" MTK tamamilə qanunsuzluq edir, vətəndaşı tam qanuni mənzilinə buraxmır".

**Y.Ağazadə deyir ki, qarşı tərəf vaxtı uzatmağa çalışır:** "Məhkəmə araşdırmaları sona çatmaq üzrə olduğu bir zamanda MTK qarşılıqlı iddia verib ki, guya Orxana maliyyə arayışını səhv edib veriblər. Bu qədər gülməli iddia vermələri başadüşülləndir. Digər tərəfdən, Cinayət Prosessual Məcəllənin tələbinə görə, qarşılıqlı iddia məhkəmənin hazırlıq iclasında verilə bilər. Ona görə də hakim həmin iddianı icraata qəbul etməkdən imtina etdi. Qarşı tərəf də iddiadan şikayət vermək niyyətindədir. Süni şəkildə prosesin uzanmasına çalışırlar".

**Y.Ağazadə deyir ki, "Yasamal" MTK vəzifəlilərinin qanunsuzluqları ilə 100-ə yaxın vətəndaş hazırda hüquq-mühafizə orqanlarını dolaşmaqdadırlar:** "Vətəndaşlar "Yasamal" MTK-dan mənzil alıblar. Lakin mənzilləri qanunsuz olaraq sahiblərinə verilmir. Ona görə də 1 il əvvəl 100-ə yaxın şəxs kollektiv müraciət hazırlayaraq Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə (KQMBİ) təqdim ediblər. Bu günə qədər 100-ə yaxın vətəndaşa, o cümlədən Orxan Əfəndiyevə şikayətlə bağlı qəbul olunmuş qərar verilməyib. Cinayət işinin başlanması və ya rədd edilməsi haqda qərarı qanuni qaydada şikayətçilərə təqdim etmirlər. "Yasamal" MTK səlahiyyətliləri isə öz qanunsuz əməllərini davam etdirməkdədirlər. Vətəndaşların hüquqları bərpa olunmur".

**Y.Ağazadə deyir ki, şikayətçilərin bir çox instansiyalara müraciətləri də KQMBİ-yə göndərilir:** "Sanki MTK rəsmiləri himayə olunur. Onları hansısa məmurun himayə etdiyini bilmirik. Amma 100-ə yaxın vətəndaşın şikayətinə rəğmən nəticəsizlik belə düşünməyə əsas verir ki, MTK-nın himayəçiləri var".

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016

# Dövlət başçısı son bir ayda üçüncü müşavirəni keçirdi

**Yanvarın 26-da prezident İlham Əliyevin sədrliyi ilə 2014-2018-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının gedişinə həsr olunmuş müşavirə keçirilib. Bu, ilin ilk ayında prezidentin iqtisadi sferanı kurasiya edən hökumət üzvlərinin də iştirakı ilə keçirilən sayca üçüncü toplantısıdır. Budəfəki toplantını fərqli edən isə icra başçılarının iştirakı idi ki, gözlənildiyi kimi, prezident onlara ciddi tapşırıqlar verib, eyni zamanda sərt xəbərdarlıqlar edib. Qeyd edək ki, yanvarın 10-da keçirilən ilk müşavirədə dövlət başçısı dotasiya ilə yaşayan rayonların iqtisadi səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlar verib və görülən işlərlə əlaqədar hər rüb məlumat verilməsi ilə bağlı rayon icra başçıları qarşısında tələb qoyub.**






## Prezident məmurları bahalı maşınlardan düşürür: "Cəzalandırılacaqlar"

### Gözlənilir ki, dövlət başçısı yaxın vaxtlarda əhalini daha çox narazı salan icra başçıları haqda ciddi cəza tədbirləri görəcək-regionların sosial-iqtisadi inkişafına həsr olunmuş toplantıdakı çıxışında prezident buna açıq işarə edib; bəzi siyasi ekspertlər hesab edir ki, "Azərbaycanda bir nəfər də olsun toxunulmaz adam yoxdur" deyən dövlət başçısı yeni həbslərə qərar verə bilər

İkinci devalvasiyadan sonra bir sıra bölgələrdə süni qiymət artımına, işsizliyə və yeri məmurların özbaşınalığına etiraz olaraq aksiyalar keçirilib ki, bu məsələdə də icra başçılarının ciddi məsuliyyəti var. Statistika da göstərir ki, sosial tələblərlə aksiya keçirilən rayonlara illərlə milyonlarla vəsait ayrılsa da, nə lazımi iş yerləri açılıb, nə də xalqın güzəranının yaxşılaşması üçün ciddi addımlar atılıb.

**Dövlət başçısı etiraz aksiyaları ilə bağlı danışmasa da, hər bir rayonda sənaye zonası yaradılması barədə göstəriş verdiyini deyib, amma bu prosesin zəif getdiyindən gileylənib:** "Bölgələrə investisiya axınını daha çox Azərbaycan dövləti, sahibkarlar təşkil edirdilər. İndi icra hakimiyyətləri daha fəal olmalıdır. Nə qədər iş yeri açılıb, müəssisə yaradılıb, investisiya cəlb edilib? İcra hakimiyyətlərinin fəaliyyətinə buna əsasən qiymət veriləcək".

Aydındır ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün yerli icra hakimiyyəti orqanlarından iki qat məsuliyyət tələb olunacaq. Neft bumunun bitməsi ilə yaxın illərdə icra başçıları əvvəlki firavan və rahat həyatlarını davam etdirə bilməyəcəklər.

**Məmurları xalqa xidmət etməyə çağıran prezidentin dediklərinə diqqət edək:** "Hər bir məmur, o cümlədən prezident xalqın xidmətçisidir. Dövlət məmurları və ailə üzvləri özlərini təvazökar aparmalıdırlar. Dövlət məmurları hesab etməməlidirlər ki, xüsusi statusları var. İnsanlara diqqət və qayğı göstərməli, problemlərini həll etməlidirlər. Məmurların fəaliyyətinə qiymətdə bu, əsas rol oynayacaq". Prezidenti deyib ki, Naxçıvanda avtomobil zavodu var: "Dövlət məmurlarının bu avtomobilləri daha çox almalarını tövsiyə edirəm".

Yeri gəlmişkən, Hesablama Palatasının apardığı yoxlamalar nəticəsində bəzi icra hakimiyyətlərində korrupsiya halları aşkarlanıb. Məlum olub ki, dövlət tərəfindən ayrılan vəsaitlər düzgün istifadə olunmayıb, büdcə vəsaitlərinin təyinatı dəyişdirilib, əmək haqqının hesablanılması zamanı əlavə və artıq ödənişlərə yol verilib. Gözlənilir ki, prezident yaxın vaxtlarda əhalini daha çox narazı salan icra başçıları haqda ciddi cəza tədbirləri görəcək. Toplantıdakı çıxışında da prezident buna açıq işarə edib.

**Prezident korrupsiya probleminə toxunaraq deyib ki, bu, bütün ölkələr üçün böyük bəladır:** "Korrupsiyaya qarşı cəza tədbirləri tətbiq olunur və olunacaq. "ASAN xidmət" mərkəzləri 7 milyondan çox insana xidmət göstərib, burada rüşvət yoxdur. Əgər yüksək vəzifəli şəxslər öz vəzifələrini yerinə yetirə bilmirlərsə, onlar cəzalandırılacaqlar. Azərbaycanda bir nəfər də olsun toxunulmaz adam yoxdur".

Yada salaq ki, prezident ötən ilin son aylarında keçirdiyi müşavirələrdə də məmurları çox sərt şəkildə tənqid edəndə də bu ifadələri işlətmişdi. Məhz bu xəbərdarlıqlardan sonra oktyabr ayının 17-də milli təhlükəsizlik naziri işdən çıxarılmış, MTN-də böyük bir cinayətkar şəbəkə ifşa edilmiş, bunun ardınca Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində sensasion antikorrupsiya həbslər həyata keçirilmiş, nazir Əli Abbasov işdən qovulmuşdu. Bəzi siyasi ekspertlər hesab edir ki, prezidentin son çıxışları komanda daxilində yeni gözlənilməz qərarlar, hətta həbslərlə nəticələnə də bilər.

**Prezident əhalini daha çox narahat edən və sosial gərginliyə səbəb ola bilən ixtisarlar və yeni iş yerləri ilə bağlı da danışıb. İlham Əliyevin sözlərinə görə, yeni iş yerlərinin yaradılmasına ehtiyac var, çünki bəzi iş yerləri bağlanır:** "Sosial məsuliyyət nəzərə alınmalı, şirkətlərdə ixtisar hallarının olmamasına çalışılmalıdır. İş yerlərinin açılmasında dövlət şirkətləri nümunə göstərməlidirlər. İşlərini itirən insanlar dövlət şirkətlərinə müraciət etsinlər, əminəm ki, iş yerləri olacaq. Sahibkarlar da bu prosesdə iştirak etməlidirlər. Çünki iş adamlarına dövlət hərtərəfli dəstək verir və iş adamları da sosial məsuliyyətlərini dərk etməlidirlər".

**Prezident müşavirədə Azərbaycandakı siyasi sabitliyə toxunub:** "Xalqımızın vahid amal ətrafınla birləşməsi, uğurlarımız bunu təmin edir. Baxmayaraq ki, ətraf ölkələrdə qarşıdurmalar baş verir. Belə olan halda Azərbaycan nümunəsi dünya üçün əhəmiyyətlidir və bir çox yerdə Azərbaycan təcrübəsi öyrənilir. Azərbaycan demokratiya yolu ilə sürətlə irəliləyir. Xalqımızı əmin etmək istəyirəm ki, dünyadakı böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf edəcək".

**Dövlət başçısı bildirib ki, manatın məzənnəsinin sona qədər sabit saxlanılmasına çalışılıb:** "Neftin qiymətinin 4 dəfə, qonşu ölkələrin mili valyutalarının 100 faiz dəyərdən düşməsi manatın məzənnəsini sabit saxlamağa imkan vermədi. Ancaq nəzərə almaq lazımdır ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Sosial siyasət, dərin iqtisadi islahatlar bizə bu vəziyyətdən də uğurla çıxmağa imkan verəcək. 2016-cı il dərin iqtisadi islahatlar ili olmalıdır və olacaq. Əlavə sərəncam və fərmanlar da imzalanacaq ki, iqtisadiyyatımız güclənsin".

**İlham Əliyev Azərbaycanda geniş özəlləşdirmə proqramının həyata keçiriləcəyini deyib. Prezident bildirib ki, hər bir özəlləşdirilən müəssisənin gələcək fəaliyyəti ilə bağlı biznes-plan təqdim edilməlidir:** "Biznes-plan, məsuliyyət, öhdəlik nəzərə alınmalıdır. Yoxsa elə çıxmasın ki, kimsə müəssisəni alacaq, yenə işləməyəcək. Bizə aparıcı xarici məsləhətçi şirkətlər lazımdır, çünki aparılan özəlləşdirmə şəffaf olmalı, dövlətin maraqları təmin edilməlidir".

İlham Əliyev bank sektorundakı vəziyyət barədə danışarkən deyib ki, tələblərə cavab verməyən, böyük qüsurları olan banklar Azərbaycanın bank sektorunda fəaliyyət göstərə bilməz. "Biz bank sektorunu sağlamlaşdırmalıyıq. Bu proses təəssüf ki, ləng gedir, prosesi sürətləndirməliyik"-dövlət başçısı vurğulayıb.

***

**Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vahid Əhmədov aznews.az-a açıqlamasında bildirib ki, 2016-cı il Azərbaycanda neftdən asılı olmayan bir büdcə formalaşdırmaq ili kimi tarixə düşəcək:** "İslahatlar artıq başlayıb, amma dərin iqtisadi islahatlara da göstəriş verildi. Bu, çox ciddi məsələdir, ciddi addımdır. Yalnız bundan sonra dərin iqtisadi islahatlara gedə biləcəyik. Buna paralel olaraq struktur və iqtisadi islahatlar aparılmalıdır".

❑ **"Yenì Müsavat"**

## "Prezident həm də baş nazir vəzifəsini icra etməlidir"

### Rəsul Quliyev Nazirlər Kabinetini ləğv etməyə, icra başçılarının sayını 30-a endirməyə çağırdı

**Eks-spiker Rəsul Quliyevin xeber24- ə geniş müsahibəsində Azərbaycanda sosial-iqtisadi vəziyyətin müsbətə doğru dəyişməsi, böhrandan çıxış yollarından biri kimi hökumət və dövlət qurumlarının sayının ciddi şəkildə azaldılmasının vacibliyini göstərib. R.Quliyev bildirib ki, nazirliklərin sayını maksimum 7-yə salmaq lazımdır. Məsələn, Maliyyə, İqtisadiyyat və Vergilər nazirlikləri birləşdirilməli işçilərin ümumi sayı 50 faiz, idarə rəhbərlərinin sayı 70 faiz, nazir müavinlərinin sayı cəmi 3 olmalıdır.**


Rəsul Quliyev

Vəzifəlilərə qulluq edən maşınların sayı 90 faiz azaldılmalı və operativ işlə məşğul olan işçilərə qulluq edən maşınların sayı 2 dəfə artırılmalıdır. Bu proses bütün nazirliklərdə baş verməlidir: "Təcili başlanğıc üçün icra başçılarının sayını maksimum 30-a çatdırmaq lazımdır. Məsələn, Göycay, Ucar, Ağsu rayonlarına bir icra başçısı və onun rayonlar üzrə 3 müavinini təyin etmək lazımdır. Əlavə müavin ştatı olmamalıdır. İcra aparatlarında işləyənlərin sayı 50 faiz, maşınların sayı 70 faiz azaldılmalıdır və sair. Nazirlər Kabineti ləğv olunmalıdır. Prezident həm də baş nazir vəzifəsini icra etməlidir. Prezidentin 3 müavini olmalıdır. Xidmət edən maşınlar 70 faiz ixtisar edilməlidir. Lazımsız avadınlıqlar, maşınlar və mülkiyyətlər bazara çıxarılıb satılmalı və gələn pul büdcəyə keçirilməlidir. İxtisara düşənləri işlə təmin etmək üçün sahibkarların qarşısında geniş meydan açmaq lazım gələcək. Məsələn, işçilərinin sayının 10 faizindən çox işçi götürən biznesləri iki illiyə vergidən azad etmək lazımdır. Ümumiyyətlə, ölkəni iflasdan çıxarda bilən, görülə biləcək işlərin cüzi bir hissəsini-təqribən 5 faizini söylədim".

Rəsul Quliyev onu da deyib ki, reformalara amansızlıqla müqavimət göstərən, sabotaj edənlər var və olacaq: "Nəzərə alsaq ki, bu insanların sayı kifayət qədər olacaq reformaya risk edənlərin işdən başlarının çıxması və qətiyyət əsas şərtdir".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016

**İrana qarşı sanksiyaların ləğvindən sonra bölgədə yaranmış yeni situasiyadan əksər dövlətlər kimi, işğalçı Ermənistan da öz maraqları üçün istifadə etməyə çalışır. Elə son vaxtlar Ermənistanın hətta tarix boyu ağası olan Rusiyaya belə xəyanət edərək İran qazını almağa çalışması da bunun nümunəsidir.**

# Tehrana qarşı sanksiyaların ləğvi Ermənistanı gücləndirəcəkmi...

Azərbaycan ərazilərini işğalda saxlaması səbəbindən özünü təcrid vəziyyətinə salmış İrəvanda daim bu fikir xüsusi vurğulanıb ki, İran Ermənistan üçün nəfəslik rolunu oynayır və bu nəfəslik qapadılsa, ermənilər boğular. Hazırkı mərhələni isə Ermənistanın özünə də əlavə "oksigen mənbəyi" hesab etmək olar. Bu mənada əksər müşahidəçilərin fikrincə, fars-erməni qardaşlığının, İrəvan-Tehran əməkdaşlığının bundan sonrakı inkişafı daha da sürətli templə həyata keçiriləcək ki, bu da Ermənistanın işğalçılığını stimullaşdıracaq. Hətta Ermənistanın İran vasitəsilə dünyaya çıxış imkanları artır. İllər boyu beynəlxalq aləm Türkiyəni Ermənistanla sərhədləri açmağa və Ermənistanı dalandan çıxartmağa cəhdlər göstərirdilər. Ancaq real situasiya artıq Türkiyə-Ermənistan sərhədlərinin açılmasına tələbatı xeyli azaldıb və artıq ermənilər İran yolu ilə dünyaya çıxış imkanı qazanıblar. Hətta iddialar var ki, Ermənistan İran üzərindən yaradacağı əlaqələr hesabına güclənmək imkanı qazanmaqla bərabər, gələcəkdə beynəlxalq layihələrdə də yer ala bilərlər.

**Konfliktoloq Elxan Mehdiyev İrana qarşı sanksiyaların aradan qaldırılması faktının Ermənistanın da taleyinə təsir göstərəcəyinə şübhə etmir:** "Həm də Ermənistanın dili uzundur. Çünki bütün dünya İrana qarşı duranda onlar İranla əməkdaşlığı davam etdirdilər. İndi İranda külli miqdarda maliyyə var. Çindən tutmuş Qərb dünyasına qədər hər kəs bu maliyyədən yararlanmaq istəyir. Ermənistan İran-Gürcüstan yolunun tikilişi üçün İrandan pul gözləyir. Qaz layihələri gündəmdədir, həmçinin İranla sərhəddəki Mehri və Qafan rayonlarının inkişafı üçün layihələr var. Digər tərəfdən, iranlıların Ermənistanda kiçik və orta biznesi canlanacaq. İran Ermənistan üçün kredit mənbəyi olacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, İran üzərindən sanksiyalar götürüldükdən sonra bu ölkə dünyaya sürətlə açılır:** "Məsələn, artıq İranla Çin arasında böyük saziş imzalanıb. Bu sazişə görə, 10 il ərzində iki ölkə arasında iqtisadi-ticarət mübadiləsinin həcmi 600 milyard dollara çatmalıdır. Və ya İran prezidentinin Avropa Birliyi ölkələrinə səfəri başlayıb. Məqsəd yenə də eynidir: inkişaf etmiş dövlətlərlə iqtisadi-ticarət müqavilələri imzalamaq. İran qonşu ölkələrlə də iqtisadi münasibətlərini inkişaf etdirməyə çalışacaq. Bu, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstandır. Suriyadakı savaşa görə İranla Türkiyə arasındakı münasibətlər soyuyub. Ancaq bu o demək deyil ki, iki ölkə arasındakı iqtisadi və ticarət mübadiləsi artmayacaq. Türkiyənin böyük şirkətləri də Qərb şirkətləri kimi İran bazarında paya sahib olmaq istəyirlər. Sanksiyaların ortadan qaldırılmasıyla İran neft satışı və dondurulmuş milyardların geri qayıtmasıyla gərəkli maliyyə vəsaitlərinə sahib olacaq. İran bu pulla əsasən yeni texnologiyalar və müasir avadanlıqlar almağa çalışacaq". **E.Şahinoğlu qeyd etdi ki, bu mənada Azərbaycanın da İran bazarına gözü var:** "Təsadüfi deyil ki, keçən ay İrana Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev səfər etmişdi. O, Təbrizdə keçirilən İran-Azərbaycan biznes-forumunda qatılmışdı.



**Elxan Mehdiyev:** "İran Ermənistan üçün kredit mənbəyi olacaq"



**Elxan Şahinoğlu:** "Ermənistanın nəyi var ki, İrana nəsə təklif etsin və ya qazandırsın?"

Forumda Azərbaycanın və İranın rəsmi şəxsləri ilə yanaşı, sənaye, kənd təsərrüfatı, tikinti, qida sənayesi, maliyyə, konsaltinq, turizm və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox iş adamı iştirak etmişdi. Şimal-Cənub nəqliyyat dəhlizi, Biləsuvar və Astara sərhəd-keçid məntəqələrinin fasiləsiz iş rejiminə keçirilməsi işlərinin intensivləşdirilməsi barədə razılıq əldə olunmuşdu. Şahin Mustafayev bildirmişdi ki, Azərbaycanın Qazaxıstanın Aktau şəhərində inşa etdiyi logistika mərkəzindən İran tərəfi də istifadə edə bilər. Nazir Azərbaycanda yaradılmaqda olan sənaye parkları və aqroparklarda İran investorlarının fəaliyyəti üçün əlverişli imkanların olduğunu demişdi. Bundan sonra Dövlət Neft Şirkətinin prezidenti İrana səfər etdi, yaxın perspektivdə isə Azərbaycan prezidentinin qonşu ölkəyə səfəri planlaşdırılır".

**Politoloq torpaqlarımızı işğalda saxlayan Ermənistanın da İrandan qazanc əldə etmək üçün səylərini artırdığını vurğuladı:** "Bir müddət öncə Ermənistanın bir qrup iş adamı da İrana səfər edib, bu ölkənin kapitalını Ermənistana cəlb etmək istəyini açıqlayıb. Rəsmi İrəvan birinci növbədə İran qazının Ermənistan üzərindən Gürcüstana çatdırılmasında maraqlıdır. Bu, Ermənistana 3 səbəbdən vacibdir: birincisi, bu layihə Ermənistana bölgədə enerji tranziti ölkə statusunu qazandıracaq; ikincisi, Ermənistanın İranla əlaqələrində yeni səhifə açılacaq; üçüncüsü, Gürcüstanın Ermənistandan asılılığı artacaq. Əlbəttə, əgər Gürcüstan İrandan qaz almaq istəyərsə, bu layihənin reallaşması perspektivi artacaq. Buna baxmayaraq, İranın Ermənistan iqtisadiyyatına yatırım qoyacağını zənn etmirəm. İran münbit bazarlardan gəlir imkanları axtarır. Ermənistanın nəyi var ki, İrana nəsə təklif etsin və ya nəsə qazandırsın? Sadəcə, Ermənistan Rusiya kimi İrana da forpost kimi lazımdır. Ona görə də İran Ermənistana əlində saxlamaq üçün hansısa kiçik layihələrə maraq göstərəcək. Ancaq danışıqlar illərlə uzanacaq və hər iki tərəf belə bir görüntü yaradacaqlar ki, sanki iş gedir".

**Politoloq Şahin Cəfərli isə İrana qarşı sanksiyaların yumşaldılmasının bu ölkənin Ermənistanla münasibətlərinə ciddi təsir göstərəcəyini, qarşılıqlı siyasi-iqtisadi əlaqələrdə xüsusi canlanma yaradacağını düşünmür:** "Ən əvvəl ona görə ki, Ermənistan-İran münasibətləri Qərb-İran konfrantasiyasından çox az təsirlənib, sanksiya rejimi Tehran-İrəvan münasibətlərində problem yaratmayıb. İndiyədək iki ölkə arasında əlaqələrin potensialından tam olmasa da, mümkün olduğu qədər istifadə edilib. Hazırda Ermənistanla İran arasında başa çatmamış 3 nisbətən iri layihə mövcuddur: şimal-cənub avtomobil magistralı; iki ölkə arasında elektrik ötürücü xəttin 3-cü qolunun tikintisi və Mehridə hidroelektrik stansiyanın inşa olunması. Sanksiyaların ləğvi nəticəsində İranın maliyyə imkanlarının artması yəqin ki, bu layihələrin başa çatdırılmasına müsbət təsir göstərəcək. Perspektiv baxımından digər müsbət amil kimi Ermənistanın üzv olduğu Avrasiya İqtisadi İttifaqı çərçivəsində həyata keçiriləcək layihələrə İranın da cəlb edilməsi ehtimalını göstərmək olar". **Bununla belə, Ş.Cəfərli qeyd etdi ki, Ermənistan Avrasiya İqtisadi İttifaqında İranla quru sərhədlərinə malik yeganə ölkə olduğundan bu tip layihələrdən ən çox faydalanan tərəf ola bilər:** "Lakin qeyd etdiyim kimi, bu, gələcəyin işidir. Qısamüddətli perspektivdə Ermənistanın İrana qarşı sanksiyaların ləğvindən hər hansı ciddi uduşunu görmürəm. Siyasi baxımdan Ermənistan üçün pozitiv amil kimi isə onu göstərmək olar ki, Azərbaycan və Türkiyənin tətbiq etdiyi blokadanın effektivliyi bir az da zəifləyir. Lakin etiraf edək ki, bu blokadanın effekti onsuz da çox yüksək deyildi. Sanksiya dövründə də İran sərhədləri Ermənistan üçün tam açıq idi. Əlavə olaraq, Gürcüstan vasitəsilə Avropaya çıxış imkanları var. Ona görə də hazırda Ermənistan üçün geostrateji baxımdan hansısa yeni situasiyanın yarandığını söyləmək doğru olmaz".

❑ **E.PAŞASOY**

# "Kreml agıllı davransa, bu böhrandan çıxmaq olar"



## Hikmət Hacızadə: "Yuxarıdakılar bir şeyi anlamalıdır, azadlıq yoxdursa, inkişaf da olmayacaq"

**"Əsaslı iqtisadi-siyasi, sosial islahatlar aparılmasa, bu gedişlə nəinki Rusiya, yaxud başqa neft ölkələri, o cümlədən bizim ölkə də ciddi problemlərlə üz-üzə qalacaq". Politoloq Hikmət Hacızadə bu fikirləri neft qiymətlərinin kəskin şəkildə aşağı düşəcəyi halında Rusiyanın çökəcəyi, yaxud hakimiyyət böhranı ilə üzləşəcəyi barədə səslənən fikirlərə reaksiyasında bildirib.**

Qeyd edək ki, məşhur amerikalı maliyyəçi Corc Soros dünya iqtisadiyyatındakı vəziyyəti şərh edərkən Rusiyanın gələcəyindən də bəhs edib. "Rusiyanın vəziyyəti hazırda çox ağırdır. Amma valyuta və qızıl ehtiyatları hələ var. Bu ehtiyatların tam tükənməsi üçün 2 ilə yaxın vaxt lazımdır. 2 ildən sonra Rusiya bütün rezervlərini xərcləyərək iflic iqtisadiyyatı və ac əhalisi ilə baş-başa qalacaq", deyə Soros bildirib.

**"Yeni Müsavat"a açıqlamasında H.Hacızadə deyib ki, bu gedişlə Rusiya bir neçə ilə çökəcək:** "Venesuelaya baxın, çökür. Əhalinin ərzaq almağa pulu yoxdur, amma neft qiymətli olanda onlar göylə gedirdilər, ruslar Almaniyanı çökdürüb, Amerikaya dərs deyirdilər. İndi isə orada dərin böhran var".

**H.Hacızadənin sözlərinə görə, ölkədə islahatların aparılması, azadlıqların verilməsi lazımdır:** "Hökumət anlamalıdır ki, azadlıq yoxdursa, inkişaf da olmayacaq. Bundan başqa, ölkəmiz dünyaya qapılarını açmalıdır! Bahalı hotellər tikiblər, amma xaricilərə viza məsələsini çətinləşdiriblər. Bəs onda bu hotellərdə qalmağa kim gələcək? Bunu ki, qavramaq ən sadə məsələdir. Heç inkişafın gəliz məsələlərinə toxunmuram hələ ki..."

**Rusiya prezidenti V.Putinin islahatlara getməsi, yaxud hakimiyyəti təhvil verməsi Rusiyanı parçalanmaqdan, çökməkdən qoruya bilərmi? H.Hacızadə:** "Qoruya bilər. Kreml agıllı davransa, bu böhrandan çıxmaq olar. Amma bunun üçün ağıl və ürək lazımdır. Hər adam islahatçı ola bilmir. İslahatçı tarixdə ən çətin və ən şərəfli peşədir, vəzifədir".

**H.Hacızadə şübhə etmir ki, beynəlxalq səviyyəli qapalı danışıqlarda Putinin qarşısında iki yoldan birini seçməklə bağlı şərt qoyulub:** "Ancaq o, islahatlar yolunu qəbul etmir. Deyəsən, vəziyyətin ciddiliyini başa düşmür. Amma hər şey ola bilər. Burada bir münəccim lazımdır ki, ulduzlara baxıb nə olacağını desin".

**Azərbaycana bütün mənalarda təsirləri qaçılmaz olan şimal qonşumuzun büdcəsinin ən böyük vergi ödəyicilərindən biri olan LUKoil şirkətinin prezidenti Vahid Ələkbərov bildirib ki, neftin 1 barelinin qiyməti 24 dollara düşəcəyi təqdirdə Rusiyada neft hasilatı sahəsində bir çox layihələr bağlana bilər. Şirkət rəhbərinin sözlərinə görə, 24 dollar ən aşağı mümkün olan həddir.** "Analitika göstərir ki, bu həddən aşağı qiymət hətta fəaliyyətdə olan bir çox layihələrin dayandırılması deməkdir" - o, əlavə edib.

"Neftin qiyməti üç il bu şəkildə qalarsa, Rusiya tarixə qarışacaq". Bunu isə Postsənayeləşmə Dövrünün Araşdırılması Mərkəzinin rəhbəri Vladislav İnozemtsev deyib. İqtisadiyyatçılar proqnozlaşdırırlar ki, Rusiyanın xəzinəsi 2017-ci ilin ortalarına boşalacaq. Beynəlxalq ehtiyatlar 510 milyard dollardan 370 milyarda enib.

Azərbaycan rəhbərliyi də etiraf edir ki, neft gəlirlərinin azalması ölkəni çətin duruma salıb və manatın devalvasiyası qərarı qaçılmaz olub. Rusiyada 2 milyondan çox həmvətənimizin çətin şərtlərlə üz-üzə qalacağı təqdirdə Azərbaycana dönməsi ölkəmizi daha ağır sınaqlarla üz-üzə qoya bilər. Müşahidəçilər hesab edir ki, Rusiya imperiyasının varlığı kimi, onun çökməsi də Azərbaycan kimi balaca ölkələr üçün təhlükələr vəd edir.

❑ **Cavid TURAN**

Yeni MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016

# Avropa Şurasından Azərbaycana qarşı ikili mövqe

**AŞ PA-nın qış sessiyasının ikinci iş günündə britaniyalı parlamentar Robert Valterin hazırladığı "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması" adlı hesabat qəbul olunmayıb. Plenar iclasda gözlənildiyi kimi, Azərbaycanla bağlı iki sənəd müzakirəyə çıxarılıb.**

AŞ PA-nın qış sessiyasında Ermənistanı işğalçı kimi tanıyan Qarabağ qətnaməsi keçmədi - həmsədrlərin çağırışı "bəhrəsini" verdi; Sərsəng su anbarı ilə bağlı sənəd isə "balans" xətrinə qəbul edildi...



**Elxan Şahinoğlu: "Qətnamənin keçməməsinin bir səbəbi Azərbaycan XİN-in yarıtmaz fəaliyyətidir"**

**Zahid Oruc: "Bunu ermənilərin deyil, Qərbin aktivinə yazmaq lazımdır"**

Bunlardan biri Robert Valterin hazırladığı, digəri isə Sosial məsələlər komitəsi adından Bosniya və Herseqovinadan olanı parlamentar Militsa Markoviçin hazırladığı "Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən içməli sudan məhrum edilməsi" adlı hesabatları olub. APA -nın məlumatına görə, məruzəçi Valterin deputat mandatının vaxtı bitdiyindən, o, hazırda assambleyada təmsil olunmur və hesabatı prosedura uyğun olaraq komitənin sədri, Sosialist qrupunun üzvü, danimarkalı Mogen Yensen təqdim edib.

Erməni tərəfi gözlənildiyi kimi, bu hesabatın təsdiqlənməsinə müqavimət göstərib və sənədin baxılması üçün yenidən komitəyə qaytarılmasını istəyib. Onların əsas arqumentləri məruzəçi R. Valterin assambleyada olmaması, hesabatı hazırlayarkən onun Ermənistan və Dağlıq Qarabağa səfər etməməsi və sənədin bir tərəfin mövqeyini əks etdirməsidir. Eyni zamanda ermənilər və onların assambleyadakı tərəfdarları ATƏT -in Minsk Qrupunun bu yaxınlarda verdikləri bəyanatı xatırladaraq hesabatın assambleyada müzakirə edilməsinə öz etirazlarını bildiriblər.

**Sonra xanım Militsa Markoviç "Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən içməli sudan məhrum edilməsi" adlı məruzəsini təqdim edib. İspaniyalı deputat Yordi Çukla AŞ PA məruzəçilərinin Ermənistana və Dağlıq Qarabağa buraxılmamasının yolverilməz olduğunu vurğulayıb:** "Biz burada Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi ilə bağlı danışmırıq. Burada spesifik mövzudan - şiddətin artması mövzusundan, onun siyasi, sosial nəticələrindən danışırıq. Bu müzakirədə əsas mövzu orada yaşayan insanların sudan məhrum edilməsidir. Bəzən suyun Afrikada, Orta Asiyada müharibə səbəbi olmasından danışırıq. Şəxsən deməliyəm ki, Minsk Qrupunun məktubunu alanda çox təəccübləndim. Bu məktubun zarafat və ya saxta bir məktub olduğunu fikirləşdim. Bu, AŞ PA -nın səylərini nəzərə almayan bir məktubdur".

Deputatların çıxışlarından sonra söz alan məruzəçi Militsa Markoviç ermənilərin arqumentlərinə cavab verərək, onların hesabatda "Dağlıq Qarabağın işğal edilməsi" termininə etirazlarının əsassız olduğunu bildirib və Azərbaycan ərazilərinin işğal edilməsi faktı ilə bağlı AŞ PA tərəfindən qətnamə qəbul olunduğunu deyib. Müzakirələrin yekununda qətnamə layihəsi səsə qoyulub və lehinə 66, əleyhinə 70 nəfər olmaqla keçməyib. Militsa Markoviçin müəllifi olduğu "Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdlə içməli sudan məhrum edilməsi" adlı məruzəsi isə 98 deputat lehinə, 71 deputat əleyhinə olmaqla qəbul edilib.

Təbii ki, beynəlxalq təşkilatlarda qəbul olunan hər bir sənəd Azərbaycanın uğurudur. Ancaq ölkəmiz üçün "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması" adlı qətnamənin qəbulu daha çox əhəmiyyət kəsb edirdi. Çünki bu sənəddə işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi zərurətindən bəhs edilirdi ki, bu da BMT Təhlükəsizlik Şurasının qətnamələrinin növbəti dəfə təsdiqi, Ermənistanın təcavüzkarlığının bəyan olunması demək idi. Elə Ermənistan da bu sənədin qəbul olunmaması üçün çox çalışmışdı. Üstəlik, sessiya ərəfəsində ATƏT-in Minsk Qrupunun həmsədrləri qətnamə layihəsinə görə AŞ PA-ya etiraz bəyanatı yaydı və bununla da işğalçıya bəraət qazandıran mövqe nümayiş etdirdi.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a AŞ PA-dakı müzakirələrin yekunlarını şərh edərkən bunları bildirdi:** "Avropa Şurasının növbəti antiermənı qətnaməsini qəbul etməməsi Azərbaycanın siyasi və hərbi mövqelərinin bundan sonrakı güclənmiş dövrdə idarəolunmaz səviyyəyə gəlib çatmasına olan ehtiyatdan irəli gəlir. Doğrudur, nümayəndə heyətimiz və avroparlamentarilərin mənsub olduğu ölkələrdəki diplomatik nümayəndəliklərimizin hamısı bu məsələ üzrə qüvvələrini səfərbər etməyə çalışmışdılar. Lakin ən təsirli dayağımızı yenə də əvvəlki illərdə qazandığımız deputatlar oldu. Ona görə də Avropa Şurası Minsk üçlüyünün sifarişini çox asanlıqla yerinə yetirərək Azərbaycanı danışıqlar masasına əyləşdirmək üçün təzyiq etdilər".

**Z.Oruca görə, qətnamənin qəbul olunmamasını ermənilərin deyil, Qərbin aktivinə yazmaq lazımdır:** "Çünki Bern danışıqları faktiki olaraq sülh prosesinin ortadan qalxdığını ortaya qoydu və təsadüfi deyil ki, Rusiya İranın Qarabağ danışıqlarına potensial namizədliyini yetişdirmək üçün fəal addımlara başlayıb".

**Belə yanaşmalar var ki, ermənilərin təbliğatı, yaxud Minsk Qrupunun təsiri ilə yanaşı, Azərbaycanın siyasi məhbuslarla bağlı addım atmaması, çağırışları dəyərləndirib bəzi şəxsləri azad etməməsi də AŞ PA-dakı nəticəyə təsir göstərib. Bu yanaşma ilə razılaşmaq olarmı? Z.Oruc bu arqumenti qəbul etmir:** "Söhbət məhbuslar və ya daxili məsələlərlə bağlı deyil. Hətta burada Amerika-Azərbaycan münasibətlərinin mənfi izlərini də axtarmağa dəyməz. Əslində son qərar şuranın əvvəlki qərarlarından geri çəkilməsi sayıla bilər, lakin indi Qərb hər vəchlə rəsmi Bakını regionla bağlı planlarına qaytarmaq istəyir və belə görünür ki, Strasbursqda hələ də köhnə dövrün geopolitikası üzərində qərarlar verilir. Halbuki indi çox böyük entuziazmla beynəlxalq siyasi-iqtisadi həyata qayıdan İran Cənubi Qafqazın geopolotikasını dəyişdirmək üçün fəal hazırlıqlara başlayıb və avropalılar yaxın zamanlarda ona şahidi olacaqlar ki, Tehran Bakıya yeni Qarabağ planı ilə təşrif buyurub. Bax, onda avroparlamentarilərin davranışları və hazırkı qrup, yaxud konspirativ maraqları dəyişəcək".

**Sessiyanın iştirakçısı, deputat Fazil Mustafa qəzetimizə dedi ki, məsələnin siyasi məhbuslarla hər hansı əlaqəsi yoxdur:** "Sırf ermənilərin dəstəklənməsi faktoru ilə bağlı olduğunu dəqiq söyləmək olar".

Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, əslində bu sənədlərin qəbulu belə, Dağlıq Qarabağ ətrafında situasiyanı dəyişmir: "Ona qalsa, AŞPA-dan da güclü 4 BMT qətnaməsi var, ancaq bu sənədlərin varlığı belə mövcud duruma təsir etmir. Əsas böyük dövlətlərin Ermənistana təsir imkanlarını hərəkətə gətirməsidir ki, o yoxdur". **Ekspert qeyd etdi ki, Volterin məruzəsinin qəbul olunmamasının ilk səbəbi həmsədrlərin AŞ PA-ya təzyiqidir:** "Ancaq qətnamənin qəbul olunmamasının ikinci səbəbi də var, bu da Azərbaycan XİN-in yarıtmaz fəaliyyətidir. Ermənistanın xarici işlər naziri və müavini az qala Avropa ölkələrinin hər birinin xarici işlər nazirinə şəxsən zəng edərək, AŞ PA-da qətnamələrin qəbul olunması üçün deputatlarına təsir etməyə çağırdı, üstəgəl, Avropadakı erməni lobbisi də təzyiqlərini artırdı. Bəs bizim XİN bu müddətdə nə etdi? Qətnamələrin taleyi yalnız bu sənədləri hazırlayan azərbaycanlı bir neçə deputatın işi oldu, lobbiçiliklə yalnız bir neçə nəfər məşğul oldu, onlara Avropa ölkələrindəki səfirlərimizdən ciddi dəstək verilmədi, hətta səfirlərimizdən biri açıq deyibmiş ki, "mən bu haqda xarici işlər nazirindən təlimat almamışam, ona görə də sizə kömək edə bilmərəm". Elə bil ki, səfirin "kömək edə bilmərəm" ifadəsi xalqa və dövlətə deyil, deputatın özünə lazımdır. Bu XİN-lə və bu cür düşüncəli səfirlərlə uzağa gedə bilmərik".

**Dəfələrlə cəhd göstərsək də, XİN-in mətbuat xidmətindən məsələyə münasibət öyrənə bilmədik.**

❑ **E.PAŞASOY**

---

# Devalvasiya qurbanları



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Dünən daha bir ailə başçısı kredit borcuna görə intihar edib - Ağcabədidə. 3 övlad atası olan 40 yaşlı vətəndaşın borcunun dollarla, yoxsa manatla olduğu deyilmir. Ancaq nə fərqi, guya manatla kredit götürənlər yaxşı gündədir?**

İş də ondadır ki, manatın ikinci ağır çöküşündən sonra borca görə öz həyatı ilə könüllü vidalaşanların problemi araşdırılsa, bəlli olar ki, onların içində banklarla yanaşı, dost-tanışa borcu olanlar da az deyil...

Dəfələrlə yazmışıq, yenə yazaq ki, cana qəsd vəziyyətdən çıxış yolu deyil, sayıla bilməz. Biz hələ bu radikal addımın Allah dərgahında böyük günah əməl olduğu, azyaşlıların valideynsiz (yetim) qalmasını demirik. Niyə çıxış yolu deyil?

Ona görə ki, qohum-qardaş borcu bağışlasa da, ələlxüsus banklara olan borclar bu yolla ləğv olunmayacaq, ailənin vəziyyəti bununla yüngülləşməyəcək və hüquqşünasların da söylədiyi kimi, böyük ehtimalla, mərhumun olan-qalan əmlakı, doğmaları hesabına silinəcək. O zaman üstəlik, yaxın-əzizləri də qəlizə soxmağa dəyərmi?

Hər halda, gedib 1-2 il türmə həyatı çəkmək bundan və övladlarını başsız qoymaqdan qat-qat məqbul yol kimi görünür. Nə bilirsən, bəlkə günün birində həmin borclar silinəcək...

Statistikanı dəqiq deyə bilmərik, amma hazırda Azərbaycan qədər postsovet məkanında kreditə görə suisidlərin, özünü yandırmaların baş verdiyi ikinci ölkə yəqin ki, yoxdur.

Odur ki, Milli Bankın rəhbəri Elman Rüstəmov bir az tələssə və heç olmasa, dollarlı kreditlər məsələsində əhalinin gözlədiyi qərarı tezləşdirsə, yaxşıdır. Əks halda, devalvasiya qurbanlarının sayı həndəsi silsilə ilə artacaq və bu qurbanlar Rüstəmov və onun təmsil olunduğu hökumətin vicdanına yazılacaq.

Axı, yanılmırıqsa, söhbət cəmi 250 milyon dollar vəsaitin tapılmasından gedir. Məgər dünənədək regionun ən varlı ölkəsi kimi öyünən, ona-buna, Belarusa, Gürcüstana yüz milyonlarla dollar borc verən, səxavət göstərən bizlər, daha doğrusu, sizlər deyildinizmi? İndi nə oldu qəfildən kasıbladınız? Olmazmı xalqa qarşı da heç olmasa, indi - kritik məqamda bir qədər lütfkar, səxavətli olasınız, ona əl uzadasınız?

Hamı bilir ki, ölkənin siyasi rəhbərliyi həmin 250 milyonu cəmi 2-3 oliqarxdan asanca alıb kompensasiyanı təmin edə bilər. Onu da hamı bilir ki, pulu balta kəsməyən həmin oliqarxlar bununla kasıblamayacaq. Gəl ki, edilmir.

Səbəbləri barədə düşünməyə dəyər. Görünür, xalqın indiki ağır vəziyyəti, onun çıxılmaza dirənməsi kimlərəsə sərfdir. Ya da bu millət üzərində növbəti təcrübi sınaq keçirilir, onun dözüm limiti, əsəbləri yenə sınağa çəkilir. Hər halda, rəsmi bəyanatlara rəğmən, ölkədə "islahat" adına deyilən bir şey də gözə dəymir.

Bu yerdə iqtisadçı alim Qubad İbadoğlu da tam haqlıdır deyəndə ki, ölkədə, gömrükdə inhisarçılıq aradan qalxıbsa, o zaman niyə qiymətlər enmir? Sonuncu sualın cavabı elə "ölkədə islahatlar başlayıbmı, gedirmi" sualına ən parlaq cavab olacaq.

İslahatların isə hələ ki ancaq vədi verilir. Dünən ölkə başçısı yanında keçirilən toplantıda bir daha bu barədə danışılıb. Prezident "2016-cı ilin dərin islahatlar ili olacağına" əminlik ifadə edib. Təki belə olsun, istəməyənin gözü çıxsın. Amma və lakin bundan ötrü iqtisadçı analitiklər rəhbərin siyasi iradəsi ilə yanaşı, minimum yeni və təmiz kadrlardan ibarət islahatçı komandanın formalaşmasını da zəruri hesab edirlər.

Bu komandanı və ona zərurəti artıq həm də potensial devalvasiya qurbanlarının varlığı, həmçinin, ölkədə günbəgün dərinləşən işsizlik problemi və təbii ki, durmadan artan qiymətlər diktə edir.



# Paralel dövlətin nazirləri

Zamin HACI
zaminhaci@gmail.com

**Keçən il bütün dünya kimi bizdə də çoxlu fəlakət, qırğın, böhran-zad oldu. Ancaq ilin axırında CNN kanalı maraqlı bir material hazırlamışdı və yarızarafat-yarıgerçək qeyd eləmişdilər ki, əslində 2015-ci il düşündüyünüz qədər pis il olmayıb. Yox, CNN "2016-ya baxanda" klassik zarafatını etməmişdi, arqumentləri də saymışdı. Bunlar neftin qiymətinin düşməsi, qlobal iqlim dəyişməsinə qarşı dünya dövlətlərinin vahid fikrə gəlməsi, ifrat yoxsulların azalması kimi şeylər idi. Hətta "Ulduz savaşları" filminin yeni seriyasının çıxması və ABŞ-da kişinin kişi, qadının qadınla evlənməsinə icazə verilməsi də 2015-ci ilin müsbət hadisələrindən sayılmışdı.**

Açığı, elə axırda sadaladıqlarıma görə CNN-in bu optimist "hesabatını" Azərbaycan hakimiyyətinin maliyyələşdirdiyi qənaətinə gəlmişdim. Yoxsa dünyaca ünlü bir kanal niyə AzTV və AzərTAc-a bənzəsin? Axı bizdə hər zaman belə olur: fəlakət xoşbəxtlik, yas toy, etiraz razılıq, qaranlıq işıq, köhnəlik yenilik kimi təqdim edilir.

Elə dünən *(rəhmətlik İbrahim müəllim demişkən, "elə götürək Yaponiyanı")* Daxili İşlər Nazirliyinin cinayətlərin azalması üzrə hesabatını görəndə mən bunu düşündüm. Necə olur axı, bizdə hər gün kimsə başqasını doğrayır, övlad ananı öldürür, müəllimlər uşaqları döyür, kriminalın qorxusundan hətta bir ara məktəbli uşaqlar sarılıq olmuşdular, çünki valideynlər və müəllimlər onlara "səni oğurlayarlar, uzağa getmə" demişdilər - lakin polisin açıqlamasına görə cinayətlərin hamısında azalma vardır? Ötən ilin müvafiq dövrünə nisbətən, dünyanın başqa ölkələri ilə müqayisədə, bla-bla-bla... Bəlkə bizdə iki, paralel ölkə vardır, birində sadə xalq yaşayıb bir-birini doğramaqla məşğuldur, o birində isə xoşbəxtlik günəşi çəmənlikdə otlayan vegetarian qurda və quzuya işıq salır?

Hardasa bir həftə öncə Baş Prokuror yanında *(idarənin yerini necə dəqiq göstəriblər! - Z.H.)* Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev mətbuat konfransı qayırmışdı. Azərbaycan kimi ölkədə korrupsiya ilə mübarizə idarəsinin rəisinin hər kəlməsini xalq intizarla gözləyir. Ümumiyyətlə, adam Komissar Katani tipində birisi olmalıdır. Ancaq Kamran müəllim birinci sinifdə oxuyan bacısı qızının saçını dartmağa qorxan kasıb müəllimə oxşayır. Elə "hesabatı" da karikatur bir şey idi. Təsəvvür edin, 2015-ci il üzrə ən çox korrupsiyaya yol verilən sahələrin adlarını açıqlamışdı: bank sektoru - 48 şəxs, ticarət sahəsi - 37 şəxs, tikinti - 31, özəl sektor - 22, təhsil - 20, səhiyyə - 6, bələdiyyə - 8, icra hakimiyyəti - 9 nəfər.

Gördüyünüz kimi, nə gömrüyün, nə verginin adları it dəftərində də yoxdur! Hələ hüquq-mühafizə orqanlarını demirəm. Halbuki Azərbaycanda yaşayan yerli xalq, nəinki yaşayan, hətta Azərbaycan üzərindən uçaqla keçən əcnəbilər də yaxşı bilir ki, bu ərazidə korrupsiyanın ən çox yayıldığı sahə elə hüquq-mühafizə orqanları, məhkəmələr, polis və prokurorluqdur. Bəs necə olur bu orqanlar korrupsiya edərkən yaxalanmırlar? Mən də qəribə sual verirəm - özlərini həbs edəsi deyillər.

Başqa bir yalançılıq və ikili standart örnəyi qiymət artımı, savadlı uşaqlar demişkən, inflyasiya sahəsindədir. Maliyyə naziri Samir Şərifov deyir ki, keçən il Azərbaycanda inflyasiya 4 faiz olub, bu il isə 10-12 faiz proqnozlaşdırılır.

Əcaib hesablamadır. Axı sən dükan-bazara gedirsən, hələ ölməmisən, ömrünün yerdə qalan hissəsini yapistlərə bağışlamamısan və görürsən ki, 2014-cü ildə 1 manata aldığın məhsul 2015-ci ildə 3 manat olub, 2016-cı ilin isə hələ bircə ayı keçməmiş 5 manata qalxıb. Hər biriniz bazar səbətinizə baxsanız onlarla belə məhsul adı görərsiniz, burda sadalayıb başağrısı vermək istəmirəm.

Ümumiyyətlə, yumurtanın zorakı ucuz saxlanılmasından başqa qiyməti minimum 50 faiz, 2 dəfə qalxmayan heç nə yoxdur. Bəs maliyyə naziri milləti niyə mal yerinə qoyub 4 və 12 faizlik inflyasiyadan qırıldadır? Bu pişikdirsə, ət niyə bahadır? Bu ətdirsə, pişik niyə nazir işləyir?

# Müxalifətin birlik toplantısı yeni qarşıdurma yaratdı

## İştirak etməyənlər tədbirin nəticəsi olacağına inanmadığını əsas gətirir, dəvət edənlər isə gəlməyənləri ittiham edir...

**Yanvarın 24-də keçirilən müxalifətin geniş toplantısına bir neçə müxalifət partiyası, o cümlədən Müsavat qatılmayıb. İddialara görə, Müsavat Partiyasına tədbirdə iştirak etmək üçün təklif gəlsə də, partiya rəhbərliyi bundan imtina edib. Səbəb kimi isə tədbirin nəticəsinin olacağına inamsızlıq göstərilib.**

Məsələ ilə bağlı əlaqə saxladığımız Müsavat başqanının müavini Elman Fəttah bildirib ki, tədbirlə bağlı partiyaya dəvət gəlib-gəlmədiyinə dair məlumatı yoxdur: "Bunu bilmədiyimə görə üçün məsələni şərh etmək üçün əsas qalmır".

**Müsavatın İcra Aparatının rəhbəri Gülağa Aslanlı** isə qeyd edib ki, partiya bu cür görüşlərdə iştirak etməyi məqbul hesab etmir: "Müsavat Partiyası qabaqcadan məqsədi bilinməyən, proqramı, istəyi məlum olmayan tədbirlərdə iştirak etməyi məqbul saymır. Bu, birincisi... İkincisi də, Müsavat Partiyasına həmin görüşdə rəsmi dəvət haqqında təklif olduğu barədə məlumatım yoxdur. Telefonla zəng olunaraq dəvət təklifi haqda da bilgisizəm".

Tədbirdə iştirak edən partiyaların təmsilçiləri isə partiyalara kim tərəfindən dəvət göndərildiyini dəqiqləşdirə bilməyiblər. Ümid Partiyasının sədri İqbal Ağazadə bildirib ki, o, heç kimi toplantıya dəvət etməyib. KXCP sədrinin müavini Xəzər Teyyublu da qeyd edib ki, toplantıda partiya sədrlərinin kim tərəfindən dəvət edilməsindən xəbərsizdir.

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə APA-ya bildirib ki, məlum toplantıya Müsavat və AXCP rəhbərliyi dəvət edilib:** "AXCP və Müsavat Partiyası bütün məsuliyyəti hakimiyyətin üzərinə atır. Hətta bəzi qüvvələr deyir ki, iqtisadi böhran nəticəsində qoy lap vətəndaş müharibəsi olsun, qırğın olsun, təki bu hakimiyyət cəzalansın. Bu, doğru yanaşma deyil". **O bildirib ki, hazırda ölkənin müxalifət partiyaları ilə birlikdə Azərbaycanda neftin qiymətinin düşməsi, manatın məzənnəsinin dəyişməsi nəticəsində yaranan iqtisadi böhranla bağlı müzakirələr aparılır, çıxış yolları axtarılır:** "Böhranın həm qlobal, həm də daxili səbəbləri var. Ölkənin bütövlüyünün, milli həmrəyliyinin saxlanması və böhrandan daha ağrısız çıxmaq hər bir vətəndaş kimi biz siyasətçiləri də narahat edir. Ona görə də müxalifət partiyaları ilə böhrandan çıxış yollarını müzakirə edirik və bu müzakirələr davamlı olacaq".



**S.Cəlaloğlu müxalifətin müzakirələrinə AXCP və Müsavat Partiyası rəhbərliyinin qatılmamasına da münasibət bildirib. Onun sözlərinə görə, bu partiyalar da toplantıya dəvət edilib:** "Mən şəxsən Arif Hacılını dəvət etdim, amma gəlmədi. Bütün hallarda bunun səbəbini özləri bilər. Ancaq deyə bilərəm ki, Azərbaycanda böhrandan çıxmaqla bağlı siyasi qüvvələrin mövqeyi eyni deyil. Bu qüvvələr bütün məsuliyyəti hakimiyyətin üzərinə atır. Müxalifət kənara çəkilib, hər şeyi iqtidarın üzərinə atsa, təhlükəli proseslər gedə bilər. Ona görə də biz hesab edirik ki, böhranla bağlı iqtidarla müzakirələr aparılmalı, təcili addımlar atılmalıdır".

❑ Röya RƏFİYEVA

# AMİP rəhbərindən ilginc inqilab açıqlaması

## "Hadisələrin inqilaba aparıb çıxaracağını da istisna etmək olmaz"

**"Ölkədə hazırda mövcud olan sosial-iqtisadi böhran eyni zamanda siyasi böhran kimi də qiymətləndirilməlidir". AMİP-in müvəqqəti sədri, baş katib Arzuxan Əlizadə "Yeni Müsavat"a açıqlamasında belə deyib. A.Əlizadə fikrini bununla izah etdi ki, ölkədə hazırkı iqtisadi böhranın yaranmasında dünyada baş verən proseslərlə yanaşı Azərbaycan hökumətinin yarıtmaz iqtisadi siyasəti də mühüm rol oynayıb.**




Son 10 il ərzində neft satışından əldə olunan vəsaitlər səmərəsiz istifadə olunub, qeyri-neft sektorunun inkişafına sərmayə qoyulmayıb, gömrük-vergi sistemində mövcud olan korrupsiya, rüşvət, şəffaflığın olmaması, monopoliyanın mövcudluğu və s. neqativ faktorlar sahibkarlığın inkişafına ciddi əngəllər törədib. Nəticə etibarı ilə faktiki olaraq bu gün Azərbaycan iqtisadiyyatı neftdən asılı vəziyyətə düşüb: "Azərbaycan xalqı indi bütün bunların əziyyətini çəkir. Ən acınacaqlısı isə odur ki, hökumətin real antiböhran proqramı yoxdur və mövcud komanda ilə hazırkı durumdan çıxılacağı mümkün görünmür. Belə olan halda nə qədər arzuolunmaz olsa da, hadisələrin inqilaba aparıb çıxaracağını da istisna etmək olmaz. Ölkə müxalifətinin inqilabi vəziyyətə hazır olmağına gəldikdə isə görünən odur ki, müxalifət daha çox gözləmə mövqeyindədir və bir növ proseslərin ardınca irəliləyən qüvvə təsiri bağışlayır".

**A.Əlizadə bununla belə, vurğuladı ki, vəziyyət kritik həddə çatacağı təqdirdə müxalifətin hadisələrin önünə keçəcəyi qaçılmaz olacaq. Onun sözlərinə görə, bu zaman hətta hakimiyyət daxilindən də hər hansı güc mərkəzinin öz gələcəyini qarantiyaya almaq şərti ilə müxalifətin müəyyən bir qanadına dəstək verilməsinin də şahidi ola bilərik.**

❑ E.SEYİDAĞA

# Sabiq ABŞ səfiri Azərbaycandakı etiraz aksiyalarından danışdı

## Riçard Kozlariç: "Azərbaycan neftdən asılılığın bədəlini ödəyir"

**"World Politics Review" portalı ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariçlə müsahibə dərc edib. Yazıda yanvarın ortasında ölkədə qiymət artımına qarşı keçirilən, 55 nəfərin saxlanması ilə nəticələnən etiraz aksiyaları xatırlanır.**

Səfir qlobal enerji qiymətlərinin düşməsinin Azərbaycan iqtisadiyyatına təsirini izah edir və vurğulayır ki, indiki durum iqtisadiyyatın 20 ildən çox enerji gəlirlərindən asılılığının göstəricidir. Prezident İlham Əliyev əksini iddia etsə də, belədir.

"lAzərbaycanın son 20 ildə enerji sektorundan nə qədər gəlir əldə etdiyi və bunun necə xərcləndiyi açıqlanmır. Bu müddət ərzində, ola bilsin, 100 milyard dollar qazanılıb. Bu vəsaitin böyük hissəsi müdafiə xərclərinə gedib, daha sonra meqa-tikinti layihələrinə, yol infrastrukturuna sərf olunub. Qalanı isə korrupsiyaya uğramış biznes vasitəsilə hakim elitanın əlinə keçib. Bu qanunsuz pul axını on milyardlar dollarla ölçülür. Bu gəlirin kiçicik bir hissəsi isə Bakıda saxta bir çiçəklənmə görüntüsü yaradıb. Bakı aeroportundan şəhərə aparan yolun arxasında, bölgələrdə bu gəlhagəlin çox cüzi izləri hiss olunur», - səfir qeyd edir.



Riçard Kozlariç

**R.Kozlariç hökumət mənbələrinə rəğmən, iqtisadiyyatda ciddi şaxələndirmənin həyata keçirilmədiyini vurğulayır:** "Bank sektorundakı ciddi böhran qeyri-neft sektorunun necə kövrək olduğunu, enerji pullarından asılılığı üzə çıxardı. Qısası, Azərbaycan bir on il boyu enerji gəlirlərini havaya sovurdu. İqtisadiyyatı şaxələndirmək əvəzinə, pulları müdafiəyə, prestijli layihələrə və kütləvi korrupsiyaya səpələdi".

**Azərbaycan ordusunun Ermənistanla sərhəddəki strateji yüksəkliyi ələ keçirdiyi barədə yayılan məlumat ciddi rezonansa səbəb olub. Ermənistan KİV-nə istinadən yayılan xəbərdə bildirilir ki, Noyamberyan rayonunun Baqanis kəndinin sakinləri (Azərbaycanın Qazax rayonu ilə həmsərhəd) yaxınlıqdakı strateji yüksəkliyin Azərbaycan ordusunun nəzarətinə keçdiyini deyiblər.**

# Ordumuzun Odundağ əməliyyatı ətrafında ilginc gəlişmə- ermənilər narahatdır

## Müdafiə Nazirliyi: "Düşmən o qədər qorxu, səksəkə içindədir ki, hər tərəfdə onun gözünə Azərbaycan əsgəri görünür"

## Üzeyir Cəfərov: "Əslində bu, çox yaxşı xəbərdir və sadəcə, biz belə mühüm məsələlərdə bir qədər diqqətli və ehtiyatlı olmalıyıq"

Ermənilərin sözlərinə görə, Odundağ adı verilən yüksəklikdən bütün Baqanis kəndi və ətraf ərazilər asanlıqla görünür. Erməni jurnalistlər həmin yüksəkliyin fotolarını da çəkib.

Azərbaycan Müdafiə Nazirliyi də Odundağ yüksəkliyinin ordumuzun nəzarətinə keçməsi xəbərini təsdiqləyib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda qeyd olunur ki, bəzi elektron kütləvi informasiya vasitələrində Ermənistandakı mənbələrə istinadən Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Noyemberyan yaşayış məntəqəsi arasındakı ərazidə yerləşən Odundağ yüksəkliyinin Azərbaycan ordusunun nəzarətinə keçməsi və ətraf erməni ərazilərinin asanlıqla müşahidə edilməsi barədə məlumat yayılıb: "Faktı təsdiq edərək bildiririk ki, həqiqətən həmin yüksəklik əlverişli və əhəmiyyətli olduğu üçün bölmələrimiz tərəfindən nəzarətə götürülüb, taktiki və mühəndis-istehkam baxımından gücləndirilib".

Ermənistan KİV-ləri isə Azərbaycan Silahlı Qüvvələrinin Odundağ dağının sol ətəyində yer işləri həyata keçirməsi ilə bağlı məlumat yayıb. Məlumata görə, bu dağın strateji əhəmiyyəti var və Azərbaycan əsgərləri onun təpəsində atəş nöqtəsi yerləşdiriblər. Bildirilir ki, yeni dayaq məntəqəsi Baqanis kəndinin mərkəzindən aydın görünür.

Mətbuatda yayılan bu xəbər sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bəzi şəxslər hətta hərbi xidmətini bu ərazidə çəkdiyini yazaraq yayılan məlumatların doğruluğuna şübhə ilə yanaşıb.

Mühacirətdə olan polkovnik İsa Sadıxov isə qeyd edib ki, Odundag heç vaxt ermənilərdə olmayıb.

Təbii ki, Qarabağ cəbhəsindəki qələbə xəbəri üçün hamımız darıxmışıq. Bu kimi məlumatlara həssaslığımızın da birinci səbəbi elə qələbə tamarzısı olmağımızdır. Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Noyemberyan yaşayış məntəqəsi arasındakı ərazidə yerləşən Odundağ yüksəkliyinin Azərbaycan ordusunun nəzarətinə keçməsi barədə xəbər ilk baxışdan çox sevindirici və qürurvericidir. Müdafiə Nazirliyi xəbəri təsdiqləyib. Ancaq belə yanaşmalar da var ki, belə məsələlərdə ehtiyatlı olmalıyıq. Sual olunur, niyə erməni KİV-ləri məhz bu ərəfədə Azərbaycan ordusunun qələbəsi barədə xəbəri tirajlayıb? Bəzi müşahidəçilər hesab edir ki, bu xəbərin Ermənistan KİV-lərində məhz indi yayılması 26 yanvarda Strasburqda keçirilən Qarabağ müzakirələrinə ən-gəl üçün düşünülüb. Ermənilər Qarabağa aid 3 qətnamənin qəbul olunmaması üçün dəridən-qabıqdan çıxırdı, Minsk Qrupunu da öz tərəflərinə çəkməyə nail olmuşdular. Ona görə də rəsmi qurumların bu xəbərə reaksiyası zamanı Ermənistanın 20 ildən çoxdur Qazax rayonunun 7 kəndini işğalda saxlaması faktı xatırlanmalıydı. Odur ki, Ermənistan bu xəbəri dövriyyəyə buraxmaqla mümkündür ki, KTMT-ni və konkret olaraq Rusiyanı qıcıqlandırmaq istəyir. Yeri gəlmişkən, məhz bunun ardınca erməni tərəf Azərbaycan ordusunun təxribat-diversiya hərəkətləri həyata keçiridiyi barədə dezinformasiya yayıb. Ona görə də ekspertlər düşmənin yaydığı xəbərlərə münasibətdə ehtiyatlı olmağımızı tövsiyə edir.



**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Müdafiə Nazirliyinin Odundağ yüksəkliyinin ordumuzun nəzarətinə keçməsi ilə bağlı xəbəri geniş səs-küyə və müzakirələrə səbəb olub:** "Mən də bu xəbərə ürəkdən sevinənlərdən biriyəm və hesab edirəm ki, bu, düşmən tərəf üçün çox ciddi xəbərdarlıq olmalıdır. Əgər biz gündəlik atəşkəs rejiminin pozulması ilə bağlı məlumatlara diqqət etsək, görərik ki, Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Noyemberyan yaşayış məntəqəsi arasındakı ərazidə yerləşən Odundağ yüksəkliyi istiqamətində mövqelərimiz saysız-hesabsız atəşə məruz qalıb. Yəni bu istiqamət bizim ordunun ön xətdə dayanan əsgərləri üçün hər zaman böyük təhlükə mənbəyi olub. Ona görə də hesab edirəm ki, Şəmkir hərbi birləşməsinin komandanlığının qəbul etdiyi qərar çox doğru və düzgündür". **Ü.Cəfərov xüsusi bir qeydini də bölüşdü:** "Yeganə narahatlığım bu xəbərin rəsmən elan olunmasındandır ki, bundan da bizi istəməyən qüvvələr öz maraqları naminə istifadə edə bilərlər. Əslində erməni tərəfindən açıqlanan bu xəbərin mahiyyətində bir az da təxribat elementləri hiss edirəm. Çünki onların məhz yanvarın 26-da Strasburqda AŞ PA-nın ATƏT-lə birgə ölkəmiz üçün mühüm bir müzakirə ərəfəsində bu məsələni hiylə-gərcəsinə gündəmə gətirməsi tamam başqa məqsədlərə hesablanmış hərəkət kimi qəbul edilməlidir. Yəni bununla Ermənistan tərəfi guya Azərbaycanın atəşkəs rejiminə əhəmiyyət vermədiyi və hətta bədnam qonşularımıza hansısa təhlükə törətmək istəməsi görüntüsünü yaratmaq istəyirlər. Bu da "oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı" zərb-məsəlini xatırladır. Yenə qeyd etmək istəyirəm ki, əslində bu, çox yaxşı xəbərdir və sadəcə, biz belə mühüm məsələlərdə bir qədər diqqətli və ehtiyatlı olmalıyıq".

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı isə "Yeni Müsavat"a açıqlamasında yayılan məlumatı bir daha təsdiqlədi:** "Məsələnin siyasi tərəfi ilə bağlı suallara cavab verə bilməyəcəyəm. Amma erməni mətbuatının və bizim mətbuatın yaydığı məlumatı biz sadəcə olaraq təsdiq etdik". **MN sözçüsü yüksəklik uğrunda əməliyyatın nə zaman keçirildiyini də konkretləşdirmədi:** "Onu deyə bilməyəcəyəm. Biz bu barədə məlumatda əməliyyatın nə zaman keçirildiyini açıqlamamışıq, sadəcə olaraq, faktı təsdiqləmişik ki, yüksəklik bizim nəzarətimizdədir". "Düşmənin hər hansı təxribatına qarşı ordumuz hansı tədbirləri görür" sualının cavabında V.Dərgahlı bildirdi ki, Azərbaycan Silahlı Qüvvələrinin bölmələri bütün cəbhəboyu - qoşunların təmas xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

**MN rəsmisi Ermənistanın Azərbaycan ordusu ilə bağlı yaydığı dezinformasiyaya da reaksiya verdi:** "Erməni tərəfi iddia edir ki, Azərbaycan ordusu da təxribat törədib. Ancaq bildiririk ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir fəaliyyət həyata keçirməyib. Düşmən o qədər qorxu, səksəkə içindədir ki, hər tərəfdə onun gözünə Azərbaycan əsgəri görünür".

❑ E.PAŞASOY



# Hakimiyyət müxalifətlə niyə məsuliyyəti bölüşsün?

## Fəzail Ağamalı: "Bunun perspektivini görmürəm, müxalifətin bunun üçün komandası yoxdur"...

**"Neçə vaxtdır müxalifət bildirir ki, iqtidar onlarla məsuliyyəti və hakimiyyəti bölüşməlidir. O söz hansı formada deyilir və bunun arxasında nə dayanır, bu, mənim üçün bir az qaranlıqdır". İqtidaryönlü deputat, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı müxalifət düşərgəsi tərəfindən iqtidara ünvanlanan məsuliyyəti bölüşməklə bağlı mesajlara münasibət bildirərkən belə deyib.**

"Əgər onlar arzulayır ki, hakimiyyətdə təmsil olunsunlar, özlərinin imkanlarını yaranmış olan vəziyyətdə ortaya qoysunlar. Və öz töhfələrini versinlər. Belə bir komandaya da müxalifət malik deyil. Prezidentin çox güclü komandası var, həm də kifayət qədər rezervlər böyükdür. Digər tərəfdən, bu gün hər hansı bir siyasi partiyaya daxil olmayan vətəndaşlarımız da var ki, onlar da zaman-zaman hakimiyyətin komandasına daxil olub. Bundan da sonra onların hakimiyyətin komandasına daxil olması istisna edilmir. Əgər bu cür formada deyilirsə, mən müxalifəti az-çox tanıyan şəxs kimi deyə bilərəm ki, müxalifətin belə imkanları demək olar ki, yoxdur",- deyə o vurğulayıb. **F.Ağamalının sözlərinə görə, parlamentdən kənarda qalan müxalifətin içərisində olan çox perspektivli, potensiallı şəxslər onlarla çoxdan vidalaşıblar:** "Ya özləri müstəqil partiya yaradıblar, yaxud da artıq heç bir partiyanın üzvü deyillər və parlamentdə təmsil olunurlar, qeyri-hökumət təşkilatı yaradıblar. Özlərinin fəaliyyətini davam etdirirlər. Ona görə də bu baxımdan müxalifət partiyalarının heç bir potensialı yoxdur. Qaldı məsuliyyətin bölüşməsinə, məsuliyyətin bölüşməsi üçün bilmirəm dəyirmi masamı keçirmək lazımdır, dialoq keçirmək lazımdır, yoxsa müzakirə keçirmək lazımdır? Bunun üçün də gərək müxalifətin potensialı olsun ki, müzakirələrdə ortalığa nə isə qoya bilsin. Ona görə məncə, bu fikirlərlə reallığı əks etdirmir. Müxalifət öz imkanlarından çıxış edərək gündəmə gəlmək istəyir. Mən bunun perspektivini görmürəm. Dəfələrlə demişəm, Azərbaycanda ciddi xarakter daşıyan hər hansı xoşagəlməz vəziyyət yoxdur. Bunu tam məsuliyyətlə deyirəm. Ölkənin iqtisadi inkişafı, sosial vəziyyəti tamamilə ölkə prezidentinin nəzarəti altındadır. Ölkə prezidenti artıq dalbadal, devalvasiyadan sonra ciddi xarakter daşıyan və islahatların tərkib hissəsi olan addımlar atmaqdadır. Bundan sonra da atacaq. Ölkə prezidenti iqtisadi islahatlarla bağlı özünə yeni köməkçi götürüb. Onu çox yaxşı tanıyıram. O, peşəkar novator bir iqtisadçıdır. Uzun illər vergi sistemində çalışan və yetərincə təcrübəyə malik olan bir şəxsdir. Və əminəm ki, bu təyinat özünün əhəmiyyətli nəticələrini göstərəcək. Bu da var. Artıq idarəçilik sistemində də ciddi xarakter daşıyan islahatlar gözlənilir. Ona görə də müxalifət, sadəcə, olaraq hər zaman olduğu kimi iqtidarın atmış olduğu prosesləri izləsə və və yaranmış olan o qədər də ciddi xarakter daşımayan təhlükəli bir situasiya yaratmayan proseslərə həmişə olduğu kimi seyrçi mövqedən yanaşsa, mənə elə gəlir ki, onların ciddi vətəndaşlıq mövqeyi olardı".

❑ RÖYA

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016



# Baş bankir dollar krediti olanlara qara xəbər verdi

## Elman Rüstəmov güzəştlərin edilməsinin maliyyə intizamını poza biləcəyini bildirib, ekspertlər isə güzəştlərin vacibliyini vurğulayırlar

**Dollar kreditlərinin məsələsi həll olunmasa da, təkliflər yenilənir. Ekspertlər dəfələrlə güzəştlər barədə təkliflər versələr də, banklar və Mərkəzi Bank dirəniş göstərir. Son olaraq isə Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov banklardan dollarla kredit götürənlərə güzəştlərin edilib-edilməyəcəyi məsələsinə münasibət bildirib. Onun sözlərindən aydın olub ki, hökumət bu məsələdə maraqlı deyil.**

APA-nın məlumatına görə, E.Rüstəmov deyib ki, "hökumətdə komanda mövqeyi ondan ibarətdir ki, bu, maliyyə intizamını poza bilər. Yəqin ki, bank sektorunun restrukturizasiyası proqramı çərçivəsində baxacağıq ki, banklara yardım vasitəsilə necə edək ki, onlar bu işin öhdəsindən gələ bilsinlər. Dövlətin banklara yardım proqramı çərçivəsində bankların bu istiqamətdə nə iş görə biləcəyinə baxmalıyıq. Yəqin ki, bunu banklarla və beynəlxalq ekspertlərlə müzakirə edəcəyik".

**Ekspert Vüqar Bayramov qeyd edib ki, Azərbaycanda bütün valyuta növləri daxil olmaqla, ümumi kredit portfelinin dəyəri 19 milyard 744 milyon manatdır. Xarici valyutada olan kreditlərin cəmi isə 7 milyard 477 milyon dollardır.** "Bu isə o deməkdir ki, dollarla olan kreditlər ikinci devalvasiyadan öncə milli valyuta ifadəsində 7 milyard 851 milyon manat idisə, hazırda rəsmi məzənnə ilə 11 milyard 664 milyon manatadək yüksəlib. Deməli, sonuncu devalvasiyadan sonra vətəndaşlar və iş adamları əlavə olaraq banklara 3 milyard 813 milyon manat vəsait ödəməlidirlər. Maraqlıdır, manatı 50 faiz dəyərsizləşdirməklə əhaliyə 4 milyard manata yaxın əlavə xərc yaradan Mərkəzi Bank hətta 250 milyon manatı ödəməyi belə yubadır. Nəinki iqtisadi modellər, hətta adi riyazi hesablamalar da göstərir ki, əhali və biznesin bu xərci tamamilə qarşılaması mümkün deyil. Əslində mən ən azı 10 min dolladək olan kreditlər üzrə fərqin Mərkəzi Bank tərəfindən ödənilməsini təklif edirəm. Mərkəzi Bank 1.05 ilə mövcud məzənnə arasındakı fərqi ödəyərsə və bununla yanaşı banklar vətəndaşlara faiz güzəştləri edərsə, o zaman ikinci devalvasiyanın bank sektoruna və borcu olanlara təsirlərini minimumlaşdırmaq mümkündür" deyə, ekspert qeyd edib.

**O deyib ki, baş bankın öz məlumatına görə, hazırda borclananların sayı 2 milyon 532 min 712 nəfərə çatıb:** "Bunların böyük əksəriyyəti isə istehlak kreditlərindən istifadə edən vətəndaşlardır. Belə ki, 2 milyon 497 min 609 nəfər fərdi borclanandır. Borclanan hüquqi şəxslərin sayı cəmi 11 min 241 şəxsdir. 2 milyondan artıq olan borclanan arasında sahibkarlıq subyektlərinin sayı cəmi 23 min 862 iş qurumudur. Fərdi borclananların sayı ondan xəbər verir ki, hazırda orta hesabla hər ailədə ən azı bir borclu var. Yəni orta hesabla hər bir ailə banka borcludur. Deməli, Mərkəzi Bankın qərarı hər bir ailəyə təsir edəcək addımdır və ən azı bu baxımdan baş bank kompensasiya mexanizmini tətbiq etməlidir. Problem heç də borclananlar ilə tamamlanmır. Hazırda Azərbaycanda 1 milyon 205 min 81 zamin var. Bu o deməkdir ki, ölkədə orta hesabla hər 4 nəfərdən birinin banka borcu var və orta hesabla hər 8 nəfərdən biri isə zamindir. Yəni milyondan artıq vətəndaş zamin kimi banklardan gələn zəngləri gözləyir və ya cavablandırırlar. Göründüyü kimi, istər borcun dəyər, istər say ifadəsi göstərir ki, bu gün, sadəcə vətəndaşların borc öhdəliyinin azalması deyil, eyni zamanda bank sektorunun qorunması məhz kompensasiya mexanizmindən asılıdır".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, dollar krediti olanlara güzəşt çox vacibdir:** "Bu, birinci devalvasiyadan sonra edilməli idi. Təəssüf ki, həmin dövrdə banklarla vətəndaşlar üz-üzə qoyuldu, hökumət heç bir dəstək vermədi. İndi həmin vəziyyət olsa da, hökumət nəsə etmək istəyir. Hər bir halda vətəndaşlara dəstək verilməlidir. Mənbə hər bir halda dövlət büdcəsi, yaxud daxili borclanma olacaq. Mən elə onu bildirmək istərdim ki, ölkədə olan valyuta qıtlığını yumşaltmağın yolu daxili borclanmanın mümkünlüyüdür. Milyardlarla dollar var ki, "yastıq altındadır", insanlar banklara etibar etmədiyi üçün belə vəziyyət yaranıb.

❑ RÖYA

# Azərbaycana krediti ağır şərtlərlə verə bilərlər

## Ölkənin reytinqi nə qədər aşağı düşürsə, onun aldığı kredit faizləri də bir o qədər artır

**Ölkəyə neftdən gələn gəlirlərin azaldığı, valyuta daxilolmalarının minimuma endiyi bir vaxtda hazırkı iqtisadi böhranda çıxış yollarından biri də xaricdən kredit borclarının alınması idi. Lakin hazırda bu məsələ ilə bağlı da ciddi problem yaranmaqdadır. Ölkənin gəlirlərinin azalması, manatın il ərzində iki dəfə kəskin devalvasiyaya getməsi nəticəsində bankların düşdüyü durum və digər neqativ hallar beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələrində Azərbaycanın kredit reytinqinin də düşəcəyindən xəbər verir.**



Belə ki, son olaraq beynəlxalq reytinq agentliyi Standard & Poor's ölkənin kredit reytinqinin aşağı salına biləcəyini elan edib. Bunun səbəbi isə neftin ucuzlaşmasıdır. Bu amil təkcə Azərbaycanın deyil, iqtisadiyyatı neftdən asılı olan əksər ölkələrin kredit reytinqində geriləməsinə səbəb olub.

Azərbaycanın uzunmüddətli borc öhdəlikləri üzrə proqnozu "stabil"dən "neqativ"ə enib. Manatın ikinci devalvasiyasından sonra beynəlxalq reytinq agentliklərinin yenidən qiymətləndirmə aparacağı və ölkəmizin reytinqinin yenidən düşəcəyi ehtimalı gündəmdədir.

Əgər beynəlxalq agentliklər Azərbaycanın reytinqini aşağı salsa, ölkə xarici banklardan kreditləri daha yüksək faizlə almalı olacaq.

**İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkənin reytinqi nə qədər aşağı düşürsə, onun aldığı reytinq göstərici üzərindən hesablanmış kredit faizləri də bir o qədər artır:** "Son dövrlərdə Azərbaycanda bütün yüksək səviyyəli məmurların dilində, eləcə də prezidentin açıqlamalarında borclanma ilə bağlı mühüm ipucları var. Yəni xaricdən borcların cəlb olunması istiqamətində müəyyən işlərin göründüyü açıq-aşkar görünür. Hazırkı böhranlı vəziyyətdən çıxış yolu kimi xarici borclanma yolunun seçilməsi də variantlardan biri idi. Çünki hazırda Azərbaycana birbaşa kapital qoyuluşunun cəlb olunması çox çətindir. Ona görə də xaricdən kredit alınması gündəmdədir. Ancaq bu məsələdə də çox böyük çətinliklər var. Birinci çətinlik ondan ibarətdir ki, beynəlxalq institutların, o cümlədən ən böyük kredit təşkilatları olan Beynəlxalq Valyuta Fondu və Dünya Bankı müəyyən reytinqlər çərçivəsində verirlər və müəyyən islahatlar tələb edirlər. Azərbaycan hökumətinin bu islahatlara gedəcəyi məlum deyil, bununla bağlı hər hansı məlumat yoxdur. İkinci önəmli məsələ Azərbaycanın gəlirlərinin azalması və kredit reytinqinin reytinq agentlikləri tərəfindən aşağı salınmasıdır. Ölkənin reytinqi nə qədər aşağı düşürsə, onun aldığı reytinq göstərici üzərindən hesablanmış kredit faizləri də bir o qədər çox artır. Yəni iki il öncə əgər Azərbaycana 4-5 faiz civarında illik kredit faizi hesablanırdısa, indi bu, az qala iki dəfəyə yaxın artacaq. Reytinq aşağı düşdükcə, faizlərin yüksəlməsi gündəmə gələcək. Bu da çox ciddi problemdir. Dünyada 3 böyük reytinq agentliyi var: Moody's, Fitch, Standard & Poor's". Onların verdiyi reytinq göstəricisi əsasında kredit faizləri hesablanır və ölkə haqqında ümumi bir rəy formalaşır".

**Natiq Cəfərlinin açıqlamasına görə, son dövrlərdə ölkənin gəlirlərinin azalması ilə və bank sistemində yaranan problemlərlə əlaqədar hər üç təşkilat Azərbaycanın reytinqini neytraldan neqativə doğru dəyişib və yenidən yoxlamalar aparır:** "Çox yaxın günlərdə ayrı-ayrı banklar və dövlət şirkətlərinin reytinqinə də yenidən baxılması gözlənilir. Artıq Moody's bununla bağlı açıqlamasını verib, yaxın günlərdə digərlərinin də açıqlamalarının mətbuata yayılacağı gözlənilir. Bu açıqlamalar çox güman ki, kredit reytinqinin mənfiyə doğru düşəcək. Bu da kredit alınmasını çətinləşdirəcək. Yüksək faizlə alınmış kreditlərin effektiv xərclənməsi və onların gəlir gətirməsi gündəmə gələcək".

**Ekspertin fikrincə, daha böyük problem Azərbaycanda alınan kreditlərin xərclənməsinin effektivliyi ilə bağlıdır:** "Bu günə qədər Azərbaycana 125 milyard dollardan yuxarı neft pulu gəlib. Bunun böyük bir hissəsi investisiya şəklində yatırılıb. Onların xərclənmə effektivliyi çox aşağı olduğundan qeyri-neft sektorunun yaranmasında, ölkənin çoxşaxəli iqtisadi modelə keçməsi, biznesin fundamental problemlərinin həllində biz heç nəyə nail ola bilmədik. Bu isə onu göstərir ki, kapital qoyuluşu effektiv deyil. Korrupsiya səbəbindən investisiya qoyuluşları effektiv idarə olunmur".

"Heç kim zəmanət verə bilməz ki, xaricdən kreditlər alındıqdan sonra idarəetmədəki boşluqlardan irəli gələn səbəblərə rəğmən effektiv xərclənəcək"- deyən iqtisadçı ekspert ölkə ciddi şəkildə borc bataqlığına sürüklənə biləcəyini istisna etmədi: "Xaricdən borc cəlb etmək iqtisadi alətlərdən biridir. Lakin effektiv idarə olunmadıqda ölkənin yükünü artırmağa gətirib çıxaracaq.

Bu səbəbdən borclanmadan öncə ciddi struktur dəyişikliklərinə ehtiyac var. İdarəetmə yenilənməli, yeni qaydalar daha şəffaf və etibarlı olmalıdır ki, alınan vəsait daha effektiv xərclənsin və ölkə iqtisadiyyatına xeyir versin".

❑ Nərgiz LİFTİYEVA

**"Dağlıq Qarabağ münaqişəsi Avropanın təhlükəsizliyinə təhdiddir". Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyasının ilk plenar iclasında qurumun yeni sədri Pedro Aqramunt bu sözləri yeni vəzifədə görəcəyi işlərdən, assambleyanın prioritetlərindən, Avropada və dünyada baş verən əsas hadisələrdən, mövcud problemlərin həllindən danışarkən deyib.**





Oleq Kuznetsov

# "Minsk Qrupu konflikti "dondurulmuş" vəziyyətdə saxlamaq üçündür"

## Münaqişənin həllinə ən böyük maneə indi məhz Minsk Qrupunun özüdür; **rusiyalı politoloq:** "Bu quruma alternativ ortaya çıxmayınca problem yerindən tərpənməyəcək..."

**Belə ki, AŞ PA sədri Avropa Şurasına üzv ölkələrdə həll edilməmiş münaqişələrin vəziyyətinə toxunaraq bildirib:** "Bizim təşkilatımız daxilində bir neçə ölkədə münaqişələr hələ də həll edilməyib. "Dondurulmuş" adlandırdığımız münaqişələr mövcuddur. Gürcüstanda Cənubi Osetiya və Abxaziya, Moldovada Dnestryanı bölgədəki münaqişə, eyni zamanda Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi hələ də həllini tapmayıb. Bu münaqişələrin bu günədək yoluna qoyulmaması ümumilikdə Avropanın təhlükəsizliyi üçün təhdid təşkil edir".

Lakin bəllidir ki, konkret olaraq, Qarabağ konfliktinin dinc yolla həlli ilə ATƏT-in Minsk Qrupunun həmsədrləri məşğul olurlar. Əgər buna "məşğul olurlar" demək mümkünsə. ABŞ, Rusiya və Fransadan olan həmsədrlərin real işlə deyil, fəaliyyət görüntüsü yaratmaqla məşğul olduğuna onların son birgə bəyanatı da şübhə yeri saxlamır.

Məlum olduğu kimi, həmin bəyanatda onlar işğalçı Ermənistan əleyhinə AŞPA-da iki qətnamə layihəsinin müzakirəsinə açıqca etiraz bildirib, hətta quruma təzyiq ediblər, konfliktin həllinin yalnız onların monopoliyasında olduğunu sübut etməyə çalışıblar. Bu monopoliyanın nəyə gətirdiyi isə ortadadır: Minsk Qrupu problemin həllində 23 ildə bircə santimetr də irəli gedə bilməyib. Çünki Ermənistanı işğalçı kimi tanımaqdan hələ də israrla imtina eləməkdə, təcavüzə məruz qalanla təcavüzkarı eyniləşdirib müharibənin nəticələrini rəsmiləşdirmək yönündə fəaliyyət göstərməkdədir. Son illərdə isə həmsədrlər açıq-aşkar ermənipərəst mövqe tutmaqla özlərini obyektiv vasitəçi olaraq tamamən gözdən salıblar.

Bu üzdən də rəsmi Bakının başqa beynəlxalq təşkilatlar və nüfuzlu dövlətlər timsalında alternativ vasitəçilik institutu axtarması təbii və normal qarşılanmalıdır. Əfsus ki, "monopolist vasitəçilər" buna, yumşaq desək, qısqanc yanaşırlar. Bu mənada həmsədrlərin son bəyanatı AŞ PA ilə yanaşı, Azərbaycana da təzyiq hesab edilməlidir.

***

Minsk Qrupu rəhbərliyinin son bəyanatına ən müxtəlif aspektlərdən şərhlər davam edir. **Rusiyalı tanınmış siyasi analitik Oleq Kuznetsovun** məsələyə yanaşması da qiymətli sayıla bilər. Onun sözlərinə görə, diplomatlar, bütövlükdə Minsk Qrupu aparatının texniki işçiləri üçün Dağlıq Qarabağ konflikti xüsusi əziyyət çəkmədən babat pullar qazanmağa imkan verən lotereyanın uduş bileti kimidir.

**Rusdilli vesti.az saytına müsahibəsində analitik deyib:** "Fikrimcə, ATƏT əməkdaşlarının əməkhaqqısı BMT-nin sülhyaratma missiyasına daxil olan mülki personalın əməkhaqqından az fərqlənir və haradasa vəzifəsindən asılı olaraq, ayda 50 min dollar təşkil edir. Bura nəqliyyat, texnoloji və başqa avadanlıq və aparatlardan istifadə xərcləri daxil deyil. Dağlıq Qarabağ münaqişəsinin istənilən həlli - ya Azərbaycanın, ya da Ermənistanın xeyrinə olsun, fərq etməz - bu bürokratları avtomatik şəkildə belə havayı "yem"dən məhrum edəcək. Təbii ki, onlardan heç biri bunu istəmir. Odur ki, "Minsk Qrupu danışıqlar üçün yeganə məqbul format olaraq qalır" kimi bəyanatlar verməkdə davam edirlər".

**Bu tipli bəyanatlar isə politoloqa görə, mübahisəlidir:** "Məlumdur ki, ATƏT regional və ya kontinental yox, transkontinental təşkilatdır, çünki tərkibinə həm də ABŞ və Kanada, həm də keçmiş SSRİ-nin Orta Asiyadakı respublikaları daxildir. Bu səbəbdən də ATƏT Avropa ərazisindəki istənilən beynəlxalq problemlə, o cümlədən Qarabağ məsələsi ilə ilgili obyektiv olaraq avropalıların fikrini ifadə edə bilməz. Bu hədəfə məhz Köhnə Qitənin ali nümayəndəli orqanı olan AŞ PA işləyə bilər. Avropalı parlamentarlara Avropa ərazisində hərbi konfliktin dondurulması və ya həlli üçün öz nizamlama strukturu yaratmasına heç kim mane olmur.

Bu, baş versə, o zaman Minsk Qrupu bu beynəlxalq problemlə məşğul olan tək orqan olmayacaq, sağlam beynəlxalq rəqabətin mövcudluğu isə həmişə istənilən fəaliyyət üçün, o sırada sülhməramlı fəaliyyət üçün stimul deməkdir. Bir daha təkrar edim ki, nə qədər ki, ATƏT-in Minsk Qrupuna alternativ, alternativlər arasında isə sağlam rəqabət olmayacaq, bürokrat həmsədrlərin görüntü fəaliyyəti onların lazımlılığı, deməli, həm də maliyyələşməsi üçün bəraət kimi qalacaq".

**Rusiyalı ekspert daha sonra AŞ PA-nın qış sessiyasında Rusiya nümayəndə heyətinin iştirak etməyəcəyinə diqqət çəkərək deyib:** "Bu - AŞ PA dinləmələri zamanı Ermənistanın mövqeyinə ağrılı bir zərbədir. Çünki Avrointeqrasiyaya deyil, ölkənin Avrasiya Birliyinə qoşulmasına üstünlük verən İrəvandakı hazırkı siyasi rejimin təmsilçiləri siyasi tənqidlərin güclü tənqid atəşi altına düşə bilərlər və nəticədə öz ünvanlarına bir cür qətnamə qazana bilərlər - hansılar ki, Ermənistanın beynəlxalq imicini əsla gücləndirməyəcək və bir daha onun təcavüzkar-ölkə statusunu müəyyən edəcək. Bu dəfə Ermənistan nümayəndə heyəti nə Rusiyanın, nə də Amerikanın dəstəyinə malik olacaq və o səbəbdən də Minsk Qrupu rəhbərliyinin mövqeyi prinsipial əhəmiyyət kəsb etməyəcək. Çox mümkündür ki, Qarabağ münaqişəsinin nizamlanması ölü nöqtədən tərpənsin və bu məsələdə həlledici rola AŞ PA sahiblənsin".

**Sonda politoloq bir daha əminliklə qeyd edib ki, Minsk Qrupu həmsədrlərinin son bəyanatı Dağlıq Qarabağ ixtilafının həll perspektivlərinə görə narahatlıqdan yox, məhz həll nəticəsində imtiyaz və qazanclardan məhrum olma qayğısından qaynaqlanıb.** "Minsk Qrupunun 20 ildən çox mövcudluğunun anlamı odur ki, konflikti, necə deyərlər, "dondurulmuş" vəziyyətdə saxlasınlar. Çünki məhz o halda belə bir qrupun mövcudluğunun və maliyyələşməsinin anlamı qorunub saxlanmış olacaq" - əlavə edib rusiyalı təhlilçi.

***

**Yazı hazırlanarkən məlum oldu ki, AŞ PA Ermənistan əleyhinə sənədlərin müzakirəsini təxirə salıb.**

# Sergey Lavrovdan növbətçi Qarabağ açıqlaması

## "Biz münaqişə tərəfləri ilə birlikdə yeni ideyalar axtarırıq..."

**"Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar masasında bir sıra sənəd var. ATƏT-in Minsk Qrupunun həmsədrləri onları sülh nizamlanmasının bir neçə mərhələsində hazırlayıblar". "Trend"in məlumatına görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov Moskvada 2015-ci ilin yekunlarına həsr edilmiş mətbuat konfransında deyib.**



Onun sözlərinə görə, bir neçə il ərzində təkmilləşdirilən bu sənədlər hazırda Dağlıq Qarabağ konfliktinin tənzimlənməsi üzrə sənədlər kimi nəzərdən keçirilir: "Heç bir sənəd Dağlıq Qarabağ münaqişəsinin bütün nüanslarının həllini təşkil etmir və Rusiya tərəflərə sülh həll yolunu tapmağa kömək etmək üçün səylər göstərir".

S.Lavrov qeyd edib ki, bu münaqişədə "hər şey və heç nə" prinsipi vacib olduğuna görə mediatorlar və tərəflər onun tənzimlənməsi yollarının axtarışı üzərində işi davam etdirirlər. "Biz birlikdə yeni ideyalar axtarırıq və tərəflərlə bu məsələ üzrə "beyin hücumu" aparırıq" - əlavə edib Rusiya XİN başçısı.

Qeyd edək ki, Sergey Lavrov ötən ilin yayında da bənzər "gümrahlaşdırıcı" bəyanat verməmişdi. Lakin həmişə olduğu kimi, bu bəyanat da sözdən o tərəfə keçmədi.

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016

# İstiqrazlar yastıq altındakı pulları üzə çıxaracaqmı?

## Ekspertə görə, istiqrazların dövriyyəyə buraxılması doğru addımdır, amma...

**Maliyyə naziri Samir Şərifovun ANS-in "Hesabat" proqramına müsahibəsində səsləndirdiyi bir sıra məqamlar mətbuatda ciddi müzakirələrə səbəb olub.**

Qeyd edək ki, nazir valyuta bazarındakı ajiotajı aradan qaldırmaq üçün bir sıra tədbirlərin həyata keçiriləcəyini, yaxın günlərdə bazara istiqrazlar təqdim ediləcəyini deyib: "Bunlar manat istiqrazlarıdır. Bu istiqrazlar üzrə yüksək faiz ödəyəcəyik. Mən vətəndaşları dəvət edirəm ki, evdə yastıqlarının altında saxladıqları manatları bu istiqrazlara qoysunlar. Biz yüksək faiz ödəyəcəyik. Bu faizlər inflyasiyadan bir qədər yuxarı olacaq. İnflyasiya 10 faizdirsə, biz 11-12 faiz verəcəyik".

İqtisadçı ekspertlər nazirin səsləndirdiyi fikirləri birmənalı qarşılamayıblar. **İqtisadçı ekspert Azər Mehtiyev** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, hökumət rəsmilərinin baş verəcək proseslərlə bağlı ictimaiyyətə açıqlama verməsi və onu əsaslandırması çox önəmlidir: "Bu addımlar nəinki qərar verildikdən sonra, əksinə, qərar verilməzdən əvvəl atılmalıdır. Çünki iqtisadiyyatdakı böhran durumu və bu böhranın aradan qaldırılması istiqamətində hökumətin hansı addımlar atacağı haqqında cəmiyyət vaxtında məlumat almalıdır. Atılan addımların əsas mənbədən birbaşa əhaliyə çatması çox önəmlidir. İctimaiyyət anlasın ki, qərarlar nədən ibarətdir, nə üçün qəbul olunub və bu qərarlar necə həyata keçiriləcək, proseslər necə tənzimlənəcək? Bu cür izahlar çox önəmlidir. Çünki Azərbaycanda çox qəribə bir vəziyyət yaranıb ki, qanunvericilikdə edilən dəyişikliklər, qəbul olunan qərarlar yalnız qəbul olunduqdan sonra ictimaiyyətə açıqlanır. Buna qədər cəmiyyətə ötürülən informasiyalar fərqli olur. Hətta bəzən informasiyaların qeyri-dəqiq ötürülməsində müəyyən qurumlar maraqlı olurlar. Bu da düzgün olmayan informasiyanın cəmiyyətdə yayılmasına və doğru olmayan reaksiyalara səbəb olur. Bu baxımdan, ən vacib məsələ hökumət adamlarının televiziyalarda vaxtında çıxış etməsi və yalan danışmadan, doğru-düzgün informasiyaların cəmiyyətə çatdırılmasıdır".




**Ekspert onu da qeyd elədi ki, bizdə hələ də müvafiq qurumların rəhbərləri ölkədə baş verən böhranın səbəblərini açıqlamaq əvəzinə, müxtəlif bəhanələr axtarırlar:** "Göstərməyə çalışırlar ki, bu iqtisadi böhranın səbəbi heç də ölkədəki yanlış iqtisadi idarəetmə deyil, kimlərinsə verdiyi səhv proqnozların nəticəsidir. Ancaq bu yanlış yanaşmadır. Ölkədə hökumət düzgün qərar qəbul edib, tətbiq edərlərsə, o zaman kiminsə şərh verməsi ilə ölkə iqtisadiyyatında panika baş verməz. Bu baxımdan, panikanın əsas səbəbi çox gec qəbul olunan qərarlar, bəzən isə düzgün olmayan qərarlardır. Məsələn, valyuta bazarında prosesləri tənzimləyən qurumların rəhbərləri televiziyada hər hansı bir devalvasiyanın olmayacağını bəyan edəndən bir neçə gün sonra manat dəyərdən düşdü. Və ya, hökumət bu gün bir qərar qəbul edir, bir neçə gün sonra həmin qərarın mənfi təsirlərini gördükdən sonra ləğv edir. Bu cür qeyri-müəyyənlik, qərarların ardıcıl olmaması son nəticədə panika yaranmasına gətirib çıxarır. Bu cür qərarların qəbulundan qaçmaq, qərarlar qəbul edilməzdən əvvəl onun təsirlərini nəzərə almaq, bu zaman cəmiyyətə həmin qərarların nə üçün qəbul edilməsi və hansı istiqamətdə addımların atılması haqqında məlumat verilməlidir. Bütün hallarda hökumətin əsas funksiyası iqtisadi-siyasi prosesləri arxasında da sürünmək, hadisə baş verdikdən sonra onun təsirlərini aradan qaldırmaq deyil. Hökumət hadisələri qabaqlamalı və iqtisadiyyatda baş verəcək mənfi hadisələrin qarşısını almaq üçün öncədən düşünüb qərar verməlidir".

**Azər Mehtiyev maliyyə nazirinin istiqrazların dövriyyəyə buraxılması təklifini müsbət qiymətləndirsə də, bunun yetərli olmadığını qeyd etdi:** "Maliyyə naziri həm valyuta bazarında, həm ölkə iqtisadiyyatında yaranmış vəziyyətin aradan qaldırılması üçün atılacaq addımlardan danışdı. Xüsusilə də valyuta bazarında baş verən proseslərin tənzimlənməsi ilə bağlı fikirlər səsləndirdi. Bildirildi ki, Maliyyə Nazirliyi istiqrazlar buraxmağa hazırlaşır, həm manat, həm dollar istiqrazları dövriyyəyə buraxılacaq, bununla da əhalinin əlində olan pulların dövriyyəyə qaytarılmasına çalışacaqlar. Bu doğru addımdır. Çünki həqiqətən də son zamanlar yaranmış qeyri-müəyyən mühitdə insanlar əllərində olan cüzi vəsaiti də dollara çevirməklə gözləmə mövqeyi tutublar. Bu vəziyyət iqtisadiyyat üçün ağrılı bir proses ola bilər. Getdikcə əhali ilə hökumət arasında münasibətlərin korlanmasına, etimadsızlığa gətirib çıxarar. Ölkədə iqtisadi aktivliyin artırılması baxımından ən müxtəlif addımlar atılmalıdır. Məsələn, əmanətlərin məbləğinin tam sığortalanması, dollar və ya manatla ola biləcək istiqrazların satılması vəsaitlərin dövriyyəyə cəlb olunmasını nəzərdə tutur. Banklarda kredit faizlərinin aşağı salınması, xüsusilə işgüzar insanlara aşağı faizlərlə güzəştli kreditlərin verilməsi və sair mexanizmlər tətbiq edilməlidir ki, ölkədə iqtisadi canlanma baş verə bilsin. Ancaq bu addımlar yetərli deyil. Yalnız bu qərarlarla əhalinin öz vəsaitlərini gətirib banklara qoyacağını, həmin istiqrazları alacağını düşünmək bir qədər sadəlövhlük olardı. Çünki ötən il son dərəcə gərgin hadisələrlə yadda qaldı. Bu hadisələr əhalinin banklara inamının sarsılmasına səbəb oldu. Bu etimadın qazanılması zaman istəyir. Hökumətdən ardıcıl addımların atılmasını istəyir".

❑ Nərgiz LİFTİYEVA

# İrandan necə qazanaq...

## İran inkişaf edərsə, Rusiya kimi potensial qazanc mənbəyi ola bilərmi?

**İrana qarşı sanksiyaların ləğv edilməsi, neftinin dünya bazarına çıxarması bu ölkənin inkişafı üçün zəmin yaradacaq. Ekspertlər İranın yaxın zamanda iqtisadi gücünün artacağını proqnozlaşdırır. Bu isə azərbaycanlı iş adamlarının yatırım etməsi üçün qonşuluqda potensial bir ölkənin olması deməkdir. Necə ki, Rusiyanın inkişafda olduğu vaxtlarda bu ölkə həm azərbaycanlı iş adamları, həm də əhalinin kasıb təbəqəsi üçün bir ümid yeri idi. Rusiyadakı həmvətənlərimizin ölkəyə göndərdiyi pullar ölkəyə ciddi şəkildə valyuta axını formalaşdırmışdı.**



Bəs görəsən, Rusiya iqtisadiyyatının zəiflədiyi dövrdə iqtisadiyyatını gücləndirən İran azərbaycanlılar üçün potensial qazanc mənbəyi ola bilərmi?

**İqtisadçı ekspert Vüqar Bayramov** "Yeni Müsavat"a açıqlamasında İranın azərbaycanlı iş adamları üçün önəmli investisiya məkanı olacağını bildirdi: "Mən düşünmürəm ki, İran yaxın vaxtlarda potensial Rusiya rolunu oynaya bilər. Çünki İran bazarı Rusiya ilə müqayisədə kiçikdir. Eyni zamanda İranın güclü dövlətə çevrilməsi, həmin bazarın möhkəmlənməsi üçün vaxt tələb olunur. Rusiyadan fərqli olaraq İranla Azərbaycanın istehsal etdiyi məhsullar arasında oxşarlıq var. Azərbaycan Rusiya bazarına öz aqrar məhsulları ilə çıxırdısa, İrana bu aqrar məhsulların çıxış imkanı məhduddur. Çünki İranın özünün aqrar sektoru kifayət qədər inkişaf edib və Azərbaycan fermerlərinin İran bazarına çıxış imkanı məhduddur. Azərbaycanın hazırda müqayisə edərkən üstünlüyə malik olduğu məhsullar aqrar məhsullardır. Bu səbəbdən biz İranı potensial Rusiya kimi görə bilməyəcəyik. Ancaq buna baxmayaraq, İran azərbaycanlı iş adamları üçün müəyyən üstünlüklərə, özəlliklərə malikdir. Əvvəla, Azərbaycan İranın bank sektoru ilə əməkdaşlığı genişləndirə bilər. Azərbaycanla İran arasında maliyyə-bank-sığorta sahəsində əməkdaşlıq mümkündür. Azərbaycan bu istiqamətdə İranla ciddi əməkdaşlıq edə bilər. Nəqliyyat sektorunda da əməkdaşlıq imkanları var. Bu da Azərbaycan iş adamlarının nəqliyyat sektorunda iştirak imkanlarının güclənməsinə səbəb ola bilər".

**Ekspertin sözlərinə görə, hələlik yaxın zamanlarda xarici şirkətlərin İran bazarına daxil olacağı gözlənilmir:** "Çünki Qərb şirkətləri İran bazarına daxil olmaq üçün müəyyən qədər gözləyəcəklər. Bu da Azərbaycan iş adamları üçün müəyyən bir üstünlükdür, onlar daha tez İran bazarında təmsil oluna biləcəklər. Qərb şirkətləri isə gözləyəcəklər ki, İranda vəziyyət necə dəyişəcək. Bu da müəyyən qədər zaman alacaq. Bu səbəbdən İranla əməkdaşlıq imkanları çoxdur. Azərbaycan iş adamları bu imkanlardan istifadə etməlidir. İranın liberallaşması həm Azərbaycanda ticarət dövriyyəsinin artmasına səbəb olacaq, həm də iş adamlarının buraya daha geniş miqyasda yatırım etməsinə gətirib çıxaracaq. İran bankları uzun müddət sanksiyaya məruz qaldığı üçün yatırıma ehtiyac var. Yeyinti sektorunda isə imkanlar məhduddur. Azərbaycanlı iş adamları innovativ şəkildə İran bazarına daxil olmalıdır. Xidmət sektoru da yatırım üçün önəmli sektorlardan biri hesab olunur".

❑ Nərgiz LİFTİYEVA



# İran prezidenti Avropada 17 milyardlıq saziş imzaladı

**İran prezidenti Həsən Ruhaninin İtaliyaya rəsmi səfəri çərçivəsində ümumi dəyəri 17 milyard dollara yaxın bir sıra sazişlər imzalanıb.**

BBC-nin məlumatına görə, razılaşmalar əsasən energetika və infrastruktur sahələrinə aiddir.

İmzalama mərasimindən sonra Ruhani İtaliyanın baş naziri Matteo Rentsi ilə Kapitoliyada ziyafətdə iştirak edib.

Ruhani Fransaya da səfər edəcək. Parisdə "Airbus" şirkəti ilə 100-dən çox təyyarənin alınmasına dair sazişin imzalanacağı gözlənilir.

**Milli valyutanın devalvasiyasından və neftin ucuzlaşmasından sonra ölkədə müşahidə olunan iqtisadi böhrandan müxalifət hakimiyyətə qarşı istifadə etmir. Üzdə olan müxalif partiyaların əksəriyyəti böhrandan çıxmaq üçün hakimiyyətə təkliflər paketi təqdim edir, yardım əlini uzadır, məsuliyyəti bölüşməyə hazır olduqlarını bəyan eləyirlər. Bəzi siyasi təhlilçilər isə müxalifətin bu davranışının əslində paradoksallıq olduğunu iddia edirlər. Qeyd edilir ki, iqtidara gəlmək fikrində olan müxalif qüvvə hakimiyyətə böhrandan çıxmaq üçün kömək etməməli, əksinə, böhranın dərinləşməsi istiqamətində iş aparmalıdır ki, hakimiyyətin mövqeləri zəifləsin.**

# Böhranın vurduğu müxalifət, yoxsa...

## Natiq Miri: "Həmin müxalif güc mərkəzləri bu addımlarında səmimi deyillər"

Bu mövzuda fikirlərini bölüşən politoloq **Natiq Miri** bildirdi ki, ilk baxışda paradoksal görünən bu vəziyyətin səbəbləri var. Səbəblərdən biri odur ki, Azərbaycandakı müxalif güc mərkəzləri monolit deyil. Onlar ideoloji baxımdan yaxın olsalar da mübarizə taktikası nöqteyi-nəzərindən fərqlidirlər: "Məsələn, Müsavat Partiyası daha dövlətçi və milli mənafeyə xidmət eləyən bir siyasi güc mərkəzidir, klassik bir siyasi partiya modelidir. Ancaq AXCP və onun dominant olduğu Milli Şura Müsavatdan fərqli olaraq daha radikal mövqe tutan güc mərkəzidir. İndiki həm siyasi, həm də iqtisadi böhran vəziyyətində müxalifətin ayrı-ayrılıqda fəaliyyətləri, davranışları prosesə adekvat deyil. Bilavasitə cəmiyyətin müxalifətdən gözləntisi bu deyil. Bu da müəyyən anlaşılmamazlıqlar yaradır. Ancaq fikir verirsinizsə, indiki şəraitdə Müsavat və digər müxalif partiyalar daha çox hakimiyyətə antiböhran proqramları, təkliflər təqdim etməklə bu vəziyyətin aradan qalxmasına daha çox üstünlük verirlər. Ancaq AXCP və Milli Şura da radikal olmalarına rəğmən indiki siyasi və iqtisadi böhranla bağlı radikal mövqe ortaya qoymur, hakimiyyətin istefasını tələb etmir.

Müsavatın və digər partiyaların hakimiyyətə böhrandan çıxmaq üçün təkliflər irəli sürməsi, kömək əlini uzatması, məncə, hakimiyyəti sevdiklərindən və ya hansısa sövdələşməyə getmək istəyindən doğan məsələ deyil. Həmin müxalif güc mərkəzləri bu addımlarında səmimi deyillər. Sadəcə olaraq, müxalifət partiyaları hazırda gücsüz vəziyyətdə olduqları üçün hakimiyyətə qarşı sərt mövqe ortaya qoymurlar. Çünki ortaya qoyduğun mövqeyə uyğun gücün olmalıdır. İndiki gücsüz vəziyyətdə müxalifət böhranın ölkədə daha da siyasiləşib dərinləşməsinə cəhd etsə, istəyinə nail olmaz və qarşılığında hakimiyyətdən çox ciddi hüquqi və siyasi həmlə görə bilər. Ona görə də hazırda müxalifət partiyaları daha çox özünü qoruma instinkti ilə hərəkət edirlər, özlərini növbəti situasiyaya hazırlayırlar. Müxalifət gözlənilən situasiyaya salamat gedib çıxmaq istəyir. Müxalifət düşünür ki, ölkədə əsas böhran hələ irəlidədir və həmin mərhələyə ayaq üstə olmaq lazımdır. Müxalifət özünü həmin situasiyaya hazırlayır. Son vaxtlar müxalifətin mötədil və konstruktiv görünmə davranışları bununla bağlıdır".


Natiq Miri

**Ekspertin sözlərinə görə, onu da nəzərə almaq lazımdır ki, bu gün Azərbaycanda inqilabi situasiyanın yaradılması üçün xaricdən heç bir dəstək yoxdur. Bunu müxalifət partiyaları da bilməmiş deyil:** "Xaricdən müxalif güc mərkəzlərinə hazırda heç bir dəstək vəd olunmur. Müxalifət də anlayır ki, prosesin içində xarici dəstək faktoru olmasa təkbaşına müxalifətin edə biləcəyi böyük bir iş yoxdur. Yalnız böyük miqyaslı xalq etirazları ortaya çıxacağı halda müxalif güc mərkəzləri səslərini çıxarmağa başlayacaqlar".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, Azərbaycanda böhrandan çıxmaqla bağlı siyasi qüvvələrin mövqeyi eyni deyil. Bəzi müxalif qüvvələr bütün məsuliyyəti hakimiyyətin üzərinə atır. Lakin bu zərərlidir:** "Müxalifət kənara çəkilib, hər şeyi iqtidarın üzərinə atsa, təhlükəli proseslər gedə bilər. Ona görə də biz hesab edirik ki, böhranla bağlı iqtidarla müzakirələr aparılmalı, təcili addımlar atılmalıdır. Ölkənin bütövlüyünün, milli həmrəyliyinin saxlanması və böhrandan daha ağrısız çıxmaq hər bir vətəndaş kimi biz siyasətçiləri də narahat edir. Ona görə də böhranın dərinləşməsinə yox, böhrandan çıxmağa hesablanan təkliflər irəli sürürük".

❑ Etibar SEYİDAĞA

# Məmurlar oğrulara "nakolka" verir?



## Mahmud Hacıyev: "Bunu tam məsuliyyətlə deyirəm ki..."

**Məmurların əhaliyə "pullarınızı evdə saxlamayın, banklara yerləşdirin" çağırışları oğruluq və quldurluq hadisələri haqda xəbərlərin intensivləşdiyi bir vaxta təsadüf edir. Son günlər mətbuat səhifələrində ən müxtəlif regionlardan tamah məqsədi ilə qətllər törədilməsi haqda da məlumatlar gəlməkdədir. Oğurluq və quldurluq xəbərləri bir-birini əvəzləyir.**

"Bakıda rektorun seyfindən 500 min manat apardılar", "Sabiq prokurorun evinə quldur basqını oldu", "Sumqayıtda şirkətdən oğurluq" və bu kimi xəbərlərin bolluğu maliyyə naziri Samir Şərifovun "pullarınızı evdə saxlamayın, evə oğru girər, ev yana bilər" fikirlərindən sonraya təsadüf edir. Sanki oğru və quldurlar nazirin fikirlərini özlərinə lazım olan informasiya kimi qəbul ediblər. Kriminal aləmdə belə informasiyalara "nakolka" vermək deyilir.

Yeni bir şəxsin var-dövlətli olması, evdə pul-qızıl zinət əşyaları saxlaması, ünvana daxil olma üsulları, mənzilində seyfin harada yerləşməsi, qarət ediləcək mənzildə kimlərin yaşadığı, hansı yaşda olduqları, müqavimət göstərə bilib-bilməməsi, ev sahibində silahın olub-olmaması və bu kimi məlumatlar qısaca "nakolka" sözü ilə əvəzlənir.

Nazirin çıxışı ilə kriminal olayların artması arasında səbəbli əlaqə varmı? Kriminal qruplaşmalar, oğrular məmurların çıxışlarını "əhalidə pul var" siqnalı kimi qəbul edib hərəkətə keçə bilərlərmi? Yoxsa digər səbəblər var?

**Sabiq polis rəisi Mahmud Hacıyev deyir ki, ölkədə oğurluq və quldurluq cinayətlərinin artması, ümumiyyətlə isə kriminogen durumun ağırlaşması labüddür:** "Samir Şərifovun, ümumiyyətlə, məmurların bu yöndə çıxışlarına qədər ölkədə 2 dəfə devalvasiya olub, əhalinin sosial- iqtisadi durumu ağırlaşıb, hətta dəyərdim dözülməz həddin astanasındadır. Samir Şərifovun hökumət üzvü kimi ölkədə baş verən 2 devalvasiyadan sonra vətəndaşlara belə bir müraciət etməsi normaldır. Çünki o görür ki, bank sektoru çökür, əhalinin əlindəki pullar isə dəyərsizləşir. Ona görə də vəziyyətdən çıxmaq üçün belə bir çağırış edir. Samir Şərifovun çağırışı "bir güllə ilə iki dovşan" vurmaq məsələnə tam uyğundur, normaldır".


Mahmud Hacıyev

**M.Hacıyev deyir ki, əgər statistik məlumatlar dorğu-düzgün verilsə, cinayətlərin artması və artan cinayətlərin böyük hissəsinin kriminal keçmişi olmayan şəxslər tərəfindən törədilməsi üzə çıxacaq:** "İndiki ağır sosial-iqtisadi durumda oğurluq və quldurluq cinayətlərinin təkcə kriminal keçmişi olan şəxslərin törətdiyini söyləmək də olmaz. Ölkədə işsizlik hər ötən gün artır, sosial durum ağırlaşır. Pulsuz-parasız, işsiz qalan, evdə çörək tapmayanlar da cinayət yolunu seçir. Aydındır ki, bu çıxış yolu deyil, amma reallıq belədir. Sadəcə, nazirin çağırışı təsadüfən oğurluq və quldurluq hadisələrinin bir-birini əvəzlədiyi vaxta düşüb. Məsələnin bu tərəfi də var ki, ölkədəki iqtisadi böhran, pulun dəfələrlə dəyərdən düşməsi, işsizliyin artması təkcə tamah məqsədli cinayətləri deyil, xuliqanlıq, ictimai asayişin qəsdən pozulması, bədənə ağır xəsarətlərin yetirilməsi, intihar və bu tipli digər cinayətlərin də sayında özünü göstərir. Məsələn, 20-30 il əvvəl 2 nəfərin mübahisəsi səs tonunun qalxması ilə sona çatırdısa, indi mübahisə səs tonunun qalxması ilə bitməyəcək. Bıçaq, balta, küt alətlər işə düşəcək".

**M.Hacıyev deyir ki, sosial iqtisadi problemlər birbaşa insanların psixoloji durumuna təsir etdiyindən xüsusi amansızlıqla törədilən cinayətləri də artıracaq:** "Gərginlik içində olan insanların əsəbi reaksiyaları, ani qərarlar verməsi labüddür. Kimsənin xoş olmayan sözünə sosial durumun yaxşı olduğu vaxtda üstündən keçilməklə reaksiya verilirdisə, indiki durumda belə olmayacaq. Ölkədəki sosial iqtisadi durum özünü qəsdən, xüsusi amansızlıqla adam öldürmə cinayətlərinin sayında da göstərir. Çünki işsiz, pulsuz vətəndaşın psixoloji durumu gərgin olur. 2016-cı ilin sonunda ölkədəki kriminogen durumun əks olunduğu statistik məlumatlarla 2015-ci və ya 2014-cü ilin statistik məlumatlarını müqayisə etsəniz, görəcəksiz ki, cinayətlərin böyük əksəriyyətini əvvəllər məhkum olunmamış, ali təhsilli, vaxtilə işlədiyi yer və yaşadığı ərazi üzrə müsbət xarakterizə olunan şəxslər törədib. Bunu tam məsuliyyətlə deyirəm. Çünki işsiz-gücsüz insanların böyük əksəriyyətinin psixoloji durumu gərgindir, bu gərginlikdən doğan cinayətlər də müvafiq olaraq artacaq".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016

# Kafelərdə suyun qiyməti də bahalaşıb

## 1 fincan çay 2 manatdır

**Son günlərin müxtəlif xidmət sektorlarındakı qiymət artımı şəhərin mərkəzində yerləşən kafe və restoranlardan da yan keçməyib. Manatın ikinci devalvasiyasından sonra bir qədər gözləmə mövqeyi tutan kafe və restoran sahibləri artıq öz qiymət pereskurantlarında dəyişiklik ediblər.**

Öncəliklə qeyd edək ki, mərkəzdə yerləşən kafelərə qiymətləri öyrənmək üçün getdiyimiz zaman orada həm də müştərilərin çox az olmasının şahidi olduq. Elə kafe işçiləri özləri də bildirdilər ki, həm havaların soyuması, həm də insanların sosial vəziyyətinin aşağı düşməsi səbəbindən müştərilərin sayında xeyli azalma var.

İlk olaraq baş çəkdiyimiz "28 Mall" ticarət mərkəzində yerləşən kafelərdə qiymət artımının şahidi olduq. Mərkəzdə yerləşən KFC-də bildirdilər ki, bütün növ qidalar 10 qəpik-1 manat arasında bahalaşıb. Burada yerləşən "Mado Cafe"də müştərilərin ən çox sifariş verdikləri 1 fincanı 1.5 manat olan çay, artıq 2 manata verilir. Bundan başqa, "künefe", "kadayıf"ların isə qiyməti 8 manata qaldırılıb. Kafedə verilən "ətli dürüm" 9 manat 50 qəpik olub. Bu isə orta hesabla sadaladığımız qidaların 2 manatdan çox bahalaşması deməkdir. Menyuya edilən düzəlişlər əllə edildiyi üçün qiymətində artım olan qidaların hansılar olduğunu asanlıqla bilmək olur.

Digər kafelərdə isə menyuda 10-50 qəpik arasında bahalaşmanın olduğunu müşahidə etdik.

Bakının Nizami küçəsində yerləşən, şəhər sakinlərinin ən çox üz tutduqları kafelərin də bəzilərində bahalaşma var. Məsələn, nisbətən ucuz olduğu üçün insanların daha çox təşrif buyurduqları "Nərgiz" kafedə bütün qiymətlər 10-50 qəpik arasında bahalaşıb. Kafenin əməkdaşları bildirirlər ki, qiymətləri qaldırmağa onları mövcud şərait məcbur etdi. "R&N" kafedə də qiymətlər 50 qəpik- 1 manat arasında qaldırılıb. Əvvəllər burada 1 manata satılan qazlı sular artıq 1.50, çöp şişdə 4.90 manata satılan toyuq isə artıq 5.90 manatadır. Bu kafenin menyusunda da düzəlişlər qələmlə edilib.

Eyni küçədə yerləşən "Cafe city"də isə hələ ki qiymətlər qaldırılmayıb. Bu kafenin işçiləri isə müştəri azlığından şikayətlənirlər. Onlar bildirirlər ki, qiymətlərdə heç bir dəyişiklik etməsələr də müştərilərin sayında xeyli azalma var. Qiymətləri qaldırmayan kafelər sırasında "Pizza inn", "Kalorit", "Papa jons"un da adını çəkə bilərik. Bu kafelərdə də həmçinin müştərilərin sayında xeyli azalmaların, bəzilərinin isə ümumiyyətlə boş olduğunun şahidi olduq.

Qidaları maya dəyərindən olduqca baha satan bu kimi restoranlarda qiymət artımı normaldırmı?

**Məsələ ilə bağlı musavat.com-a danışan iqtisadçı ekspert Rəşad Həsənov bildirib ki, normal bazar şərtləri daxilində kimsə sahibkarlıq subyektinə qiymət siyasəti ilə bağlı təsir göstərə bilməz:**

"Burada nəyisə diktə etmək doğru deyil. Məsələ ondadır ki, bu gün Azərbaycanda administrativ yollarla şirkətlərin qiymət siyasətinə müəyyən təsir və təzyiqlər olur. Bu, normal yanaşma deyil. Proses normal bazar prinsipləri əsasında formalaşmalıdır. Tələb və təklif əsas rol oynamalıdır. Bir çox hallarda sahibkarın hansı qiymət siyasətini həyata keçirməsi, ümumi qiymətlərin formalaşmasında əsas amil hesab olunur. Bəzi xidmət sahələri var ki, onlar lüks kateqoriyalı qrupa daxil olurlar və onların qiymətləri maya dəyəri ilə müqayisədə çox baha olur. Hazırkı situasiyada isə xidmət sahələrində qiymətlərin bahalaşmasına gəlincə, burada qeyri-adi nə isə yoxdur. Onların istehlak etdikləri məhsulların qiymətlərində bahalaşma gedir. Maya dəyərinin üzərinə isə sahibkar öz marjasını əlavə edib, qiymətləri müəyyənləşdirir. Hesab edirəm ki, istehlakın daraldığı, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşdüyü dövrdə bahalı qiymət siyasəti həyata keçirən sahibkarlar prosesdən daha zərərlə çıxacaqlar. Daha ucuz və əhalinin böyük qruplarına hesablanmış xidmətlər təklif edən sahibkarlar isə nisbətən böhranı daha az təsirlərlə yola verəcəklər".

❑ **Əli RAİS**
















## Kombinat direktorunun qətlini qadın təşkil edibmiş



Bakıda qətlə yetirilən Taxıl Kombinatının direktoru Qalib Bağırovun qətli ilə bağlı 3 nəfər saxlanılıb. Bu barədə «Trend»ə hüquq-mühafizə orqanlarından məlumat verilib. Məlumata görə, hüquq-mühafizə orqanları əməkdaşlarının keçirdiyi istintaq-əməliyyat tədbirləri nəticəsində qətli törətməkdə şübhəli bilinən Mahnurə Heydərəli qızı Hüseynova, Ehtiram Hətəm oğlu Həsənov və Mübariz Soltanağa oğlu Əliyevdir. Məlumata görə, Mahnurə Hüseynova mərhumun tanışı olub. Qətl planı da onun iştirakı ilə hazırlanıb.

Məlumatda bildirilir ki, Q. Bağırovun tanışı M. Hüseynova mərhuma zəng vuraraq onunla görüşmək üçün evə gəlib və ardınca tanışları evə basqın edib və qətl hadisəsini törədiblər.

Xatırladaq ki, hadisə yanvarın 8-də paytaxtın Hövsan qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1963-cü il təvəllüdlü Qalib Afil oğlu Bağırov yaşadığı bağ evində xüsusi amansızlıqla qətlə yetirilib. Kombinat direktoruna 8 bıçaq zərbəsi vurulandan sonra boğularaq qətlə yetirilib.

Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.11-ci (quldurluq, hədə qorxu ilə tələb etmə ilə əlaqədar qəsdən adam öldürmə) və 181.3.3-cü (quldurluq, zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanıb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 19 (6340) 27 yanvar 2016



# Qar yanvarın 28-dək davam edəcək

## Soyuq hava şəraiti Bakıda və əyalətlərdə problemlər yaradıb

**Soyuq hava kütləsi yanvarın 25-dən başlayaraq ölkəmizə daxil olub. Yanvarın 26-dan başlayaraq ölkə ərazisində yağış, sulu qar, qar yağıb. Düşən yağıntının miqdarı Bakıda və Abşeron yarımadasında 1-14, Böyük Qafqazda 5-45, Lənkəran-Astara zonasında 2-27, Mərkəzi Aran rayonlarında 2-20, Kiçik Qafqazda 4-11, Qazax-Gəncə zonasında 1-8, Naxçıvan MR-də 4-7 milli metr olub. Qar örtüyünün hündürlüyü Sarıbaşda (Qax) 64, Şəki, Ağdərədə (Ordubad) 45, Qaxbaşda 40, Sinçay, Kişçay (Şəki) 38, Zaqatalada 37, Qəbələdə 36, Oğuzda 32, Balakəndə 31, Altıağacda 26, Kirən, Gədəbəydə 22, Şamaxıda 19, İsmayıllıda 18, Yardımlıda 17, Şahbuzda 16, Xınalıq, Qubada 15, Qubanın dağlıq ərazilərində 35-46, dağətəyi rayonlarında 3-26, Ağsu, Daşkəsəndə 13, Göyçayda 11, Lerik, Ordubadda 10, Rvarudda 8, İmişlidə 7, Şərur, Naxçıvan, Kəlvəz, Göygöldə 6, Mərəzədə 5, Tovuz, Zərdabda 4, Maştağa, Cəfərxan, Qazıməmməd, Biləsuvar, Lənkəranda 3, Xaçmaz, Göytəpə, Nabran, Bakıda 2, Binədə 1, Şabranda 0,3 santimetr olub.**

Maraqlıdır, bəs bu cür hava şəraiti nə vaxta kimi davam edəcək?

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor əvəzi Gülşad Məmmədova qeyri-sabit hava şəraitinin yanvarın 27-dək davam edəcəyini bildirdi: "Şimaldan hərəkət edən soyuq hava cərəyanlarının təsiri nəticəsində yanvar ayının 24-dən başlayaraq ölkə ərazisində hava şəraitinin dəyişməsi müşahidə olundu. Yanvarın 25-də isə hava şəraiti bir qədər də kəskinləşdi. Güclü şimal-qərb küləyi əsir. Arada yağıntılı hava şəraiti müşahidə olunur. Yağıntılar əksər rayonlarda sulu qar və qar şəklindədir. Ayrı-ayrı rayonlarda isə yağıntılar gecə xarakterli olub. Bu cür hava şəraitinin yanvarın 27-si gündüz saatlarından başlayaraq tədricən mülayimləşməsi gözlənilir. Belə ki, müşahidə etdiyimiz güclü şimal-qərb küləyi yanvarın 27-si gündüz saatlarından başlayaraq mülayimləşəcək və yağıntılar tədricən kəsiləcək. Havanın temperaturu paytaxtda gecə saatlarında 1-6 dərəcə şaxta, gündüz saatlarında isə 1-4 dərəcəyədək isti müşahidə olunacaq. Yanvarın 28-də isə artıq paytaxtda hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir və mülayim cənub küləyi əsəcək. Havanın temperaturu yanvarın 28-də bu günlərlə müqayisədə tədricən 2-3 dərəcə yüksək olacaq. Bölgələrdə də yanvarın 27-dən başlayaraq yağıntılar tədricən kəsiləcək. Yanvarın 28-də əsasən yağmursuz hava şəraiti olacaq. Bölgələrdə ayın 28-də bu günlərlə müqayisədə tədricən 2-3 dərəcə yüksələcək. Yanvarın 29-da bölgələrdə gecə saatlarında 4-8 dərəcə şaxta, gündüz saatlarında isə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti müşahidə olunacaq. Dağlıq ərazilərdə havanın temperaturu gecə saatlarında 7-10 dərəcə şaxta, gündüz saatlarında 3-8 dərəcə şaxta müşahidə olunacaq. Yanvarın 28-dən isə havanın temperaturu bu günlərə nisbətən yüksələrək Mərkəzi Aran rayonlarında 6 dərəcəyədək isti gözlənilir".

Qeyd edək ki, qeyri-sabit hava şəraiti ilə əlaqədar ötən gündən bu gün səhər saatlarına qədər 5 yol qəza hadisəsi qeydə alınıb. Bu haqda mətbuata açıqlama verən Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin mətbuat katibi, polis polkovniki Vaqif Əsədov vurğulayıb ki, qəza hadisələri zamanı xəsarət alan olmasa da, avtomobillərə maddi zərər dəyib.

**V.Əsədov həmçinin şaxtalı hava şəraiti ilə əlaqədar əhaliyə, avtomobil sürücülərinə və sahiblərinə də müraciət edib:** "Belə hava şəraitində sürət həddi minimuma endirilməli, ara məsafəsi normadan artıq saxlanılmalıdır. Sürücülər əyləc sistemindən istifadə etmənin avtomobilin sürüşmə ehtimalının artırdığını yadda saxlamalıdırlar. İstismar müddəti bitmiş, isitmə sistemi olmayan və soyutma sistemi su ilə təchiz edilən nəqliyyat vasitələrindən belə hava şəraitində istifadə edilməsi çox təhlükəlidir. Ona görə də bir daha xahiş edirik ki, sürücülər bunu nəzərə alıb ən azından özlərinin təhlükəsizliyi naminə bu deyilənləri yerinə yetirsinlər".

Bundan başqa, yanvarın 25-i səhərdən bu günə kimi Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında 1 800 çağırış qeydə alınıb.

❑ Günel MANAFLI

# Qar yağıbsa... buzlu suda çimin

## Günün unikal məsləhətini dünya həkimləri verir

**İlk qarın yağması ilə yerli mediada buzlu, qarlı yollardan hazırlanan reportajlar, sürüşən maşınlar, baş verən qəzalar... xəbəri də artıb. Amma bugünlərdə dünyanın bir çox ölkələrində qarlı, buzlu hava şəraiti hökm sürdüyü üçün bizim görməyə öyrəşmədiyimiz mənzərələrə də rast gəlinir. Ən çox yayılan mənzərə isə çimərlik paltarında özünü qarın içinə atanlardır. Onlar buzlu suya girirlər, qarla ovxalanırlar, qarın içində uzun müddət həmin geyimdə qalırlar. Bizə görə bunun adı ekstramdır, adrenalin artımıdır və s. və i. Əslində isə tibb elmi bunun izahını uzun müddət öncədən tapıb.**



### Suya qədər gedən yolda... corab geyinin

Həkimlər bir qayda olaraq deyirlər ki, ürək-damar xəstələrinin, epilepsiya, beyin sklerozundan, şəkərli diabetdən və tənəffüs yolu xəstəliklərindən *(vərəm, ağciyərin sətəlcəmi, bronxial astma)* əziyyət çəkənlərin buzlu suda çimməsi bir qayda olaraq məsləhətdir. Amma qarlı havadır deyə hər suya da baş vurmaq olmaz. Daha öncədən bu yer yoxlanılmalıdır. Üstəlik, buzlu su 1,8 metrdən dərin olmamalıdır.

Keçək digər məsləhətlərə. Həkimlər hesab edir ki, buzlu suya girmədən öncə geyim məsələsində xüsusi həssaslıq nümayiş etdirmək lazımdır. Belə ki, suya qədər gedən yolda ya rezin ayaqqabı, ya da yun corab geyinmək lazımdır. Çünki suya öyrəşənə qədər ayaqları birdən-birə ağır yük altında qoymaq olmaz. Bundan başqa, çayın kənarında yun hamam xalatı, isinmiş dəsmal da saxlamaq məsləhətdir.

Buzlu suya girmədən öncə az da olsa isinmək məsləhətdir. Amma çox da isti suda yox. Əks halda, soyuq suya adaptasiya mümkün deyil. Bundan başqa, suya baş vurmaq istəyən adam isinmək üçün öncədən qısa gimnastik hərəkətlər etməlidir. Bədən isti, amma tərsiz olmalıdır.

Dini mərasimlərdə insanlar buzlu suya baş vururlar. Həkimlər deyir ki, heç də hamı buzlu suya baş vurmalı deyil, ancaq bədənini orda imtahandan keçirə bilər. Çünki yaş saçla qarlı havada mənzil başına sağlam, problemsiz çatmaq az qala mümkün deyil. Sudan çıxan kimi saçları qurutmaq isə praktik baxımdan imkansız görünür.

Ən maraqlı məqam isə eyforiya ilə bağlı olandır. Müşahidəçilər deyir ki, buzlu suya girən bir çox insanlar ilk saniyələrdə eyforiyaya qapılır. Sonu gəlməz sevinc hissi yaşayır, bu da onları suda 4-5 dəqiqə qalmağa vadar edir. Bu qəfil sevinc hissi isə Allahın bir hədiyyəsi deyil, sadəcə, bədəndə soyuğun təsiri ilə gedən kimyəvi proseslərin nəticəsidir. Endorfinlərin təhriki ilə suda çox qalmaq isə sağlamlıq üçün birbaşa riskdir.

### Buzlu sudan çıxandan sonra insanın nitqi də tutula bilər

O ki qaldı çimmədən əvvəl və sonra yeyilib-içilənlərə, bunun üçün də özəl məsləhətlər var. Sudan çıxanlar mütləq isti çay, kofe ya da şorba içməlidir. Bunları çimməyə gedərkən termosda aparmaq məsləhətdir. Və hər şeydən əvvəl insan belə suya girmədən əvvəl öz orqanizminə güvənməlidir. Əgər buzlu suya girmək sizdə dəhşət hissi yaradırsa, bir daha düşünməyə dəyər - görəsən, bunu edimmi?

Yox, əgər kimsə orqanizminə həddən artıq güvənib, buzlu suya girirsə və ardınca ciddi fəsadlar yaşayırsa, bunun üçün də çıxış yolları var. Məsələn, tutaq ki, soyuq suda donanların dərhal bədəni göyərir, nitqi tutulur, bədəni hərəkətsizləşir. Bu, onun soyuq su imtahanından çıxmadığına işarədir. Təcili yardım maşını gələnə kimi xəstənin bədənini qurutmaq, quru və isidilmiş paltar geydirmək, bədənini masaj eləmək lazımdır. Bütün bunlardan sonra azca da olsa özünə gələn xəstəyə isə mütləq isti çay vermək lazımdır. Yox, bunlar fayda vermirsə, o zaman həkim müdaxiləsi şərtdir.

### Suya girmədən... qorxub ölənlər

Soyuq su ancaq fiziki fəsadla nəticələnmir. Rusiya Səhiyyə Nazirliyinin apardığı araşdırmalara görə, hətta suya girməmiş qorxudan dünyasını dəyişənlər də olur. Suya girib, onun soyuqluğunu bədənində hiss etmədən qorxu impulsu ürəyə ötürülür. Bir çox hallarda bu, insult, infarkt keçirmiş insanlar üçün ciddi fəsadlar törədir. Ona görə də ilkin məsləhət belədir - heç kimi buzlu suya girməyə məcbur etməyin. İnsan psixoloji cəhətdən hazır olmamış bu addımı atmamalıdır. Digər tərəfdən, tərəddüd edənlər üçün də suda qalma zamanı çox qısa olmalıdır. Suya girdin və çıxdın. İlk dəfə üçün bu, bəsdir. Üzməyə, digərləri ilə rəqabət aparmağa əsla ehtiyac yoxdur.

Bu mənada idmançıların işi yaxşıdır. Onlar suya daxil olan kimi beyinlərinə də siqnal ötürülür. Sən soyuq suya girmisən, dərhal isinməlisən. Dərhal mərkəzdən orqanizmin digər hissələrinə qan axını güclənir, adrenalin yüksəlir, soyuqdan qorunma instinkti sürətlənir. Bu zaman da bədəndən dərhal buxar çıxır.

Qarlı havada suda çimməyi qoyaq bir tərəfə. Həkimlər normal havalarda soyuq duşun də effekt verdiyini düşünür. Məsələn, soyuq su ilə alınan duş üz dərisinin gənc qalmasını təmin edir, çünki soyuq su qan dövranını sürətləndirir və cild təzələnir. Bundan başqa, baş ağrısını azaltmaq üçün də soyuq duş məsləhət görülür. Belə ki, soyuq su başınızdakı gərginliyi azaldır. Duşun təzyiqini elə ayarlamaq lazımdır ki, bolluca su gəlsin. Aşağı təzyiqdən əziyyət çəkənlərin də qan dövranını sürətləndirmək lazımdır. Bunun üçün iki vedrəyə ehtiyac var. Vedrələrdən birinə 36-38 dərəcə istilikdə su, o birinə isə mümkün olduğu qədər soyuq su doldurun. Öncə 5 dəqiqə boyunca qollarınızı tamamən isti suyun içinə salın. Sonra 10-20 saniyə soyuq suyun içinə salın. Bu ardıcıllığı bir neçə dəfə təkrarlayın. Sonda isə suyu qollarınızdan axıdın, amma qurulamayın. Olduğunuz yerdə xəfif qaçmaq da bu ardıcıllığa daxildir. Təkrar isinənə qədər hərəkət etmək lazımdır.

İsti su ilə çimmək dəri üzərindəki kirləri əridir. Soyuq su isə damarların gərilməsini və gücünün artmasını təmin edər. Eyni zamanda bədən içərisindəki yanmanı qamçılar, beləcə, bədəni isidər. Ürək atışı və tənəffüs sürətlənərsə, ürək daha güclü işləyir, nəfəs alma daha genişlənir.

Bundan başqa, qızdırmalı xəstəliklərdə də həkim tövsiyə etdiyi zaman soyuq suyun faydası var. Ən azından qızdırmanı aşağı salmaqda gücsüz olan bədənə gümrahlıq gətirir.

❑ Sevìnc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 19 (6340) 27 yanvar 2016



# Nəm salfet, yoxsa zəhər...

**Yaşından asılı olmayaraq bütün insanlar üçün salfetlər önəmlidir. Gündəlik yaşam zamanı insanı bir çox narahat vəziyyətlərdən xilas edən salfetlər, demək olar ki, hər kəsin çantasında mövcuddur. Təmizlik, xüsusən mikroblardan qorunmaq üçün istifadəsinin vacibliyini qeyd edən firmalar bu salfetlərin heç bir əks-təsirindən söz açmır. Halbuki böyüklər üçün belə təhlükəli olan bu salfetlərin uşaqlar üçün istehsal olunub satışa buraxılması heç də düzgün deyil.**

Araşdırma zamanı məlum oldu ki, insanlar nəm salfetlərdən istifadə etsələr də, onun gigiyenik tərəfinə o qədər də əhəmiyyət vermirlər. Halbuki ən yüngül halda ağır dəri allergiyası yarada bilən bu salfetlərin tərkibində olan kimyəvi maddələr xərçəngə qədər apara bilər. Bir çoxları hesab edir ki, bu salfetlər sağlamlıq üçün faydalıdır və gigiyenik cəhətdən dərinin təmizlənməsinə yardım edir. Lakin tədqiqatçılar tez-tez istifadə etdiyimiz vasitənin daşıdığı təhlükəni aşkar ediblər. Dermatoloqlar gigiyenik vasitəni dəqiqliklə araşdırıb, təkidlə bildiriblər ki, salfetlər dərinin allergik reaksiyasına səbəb ola bilər. Bundan əlavə, tibbi statistikaya əsasən, bu cür hallar dünyanın müxtəlif bucaqlarında tez-tez baş verir. Mətbuatda çıxan məlumatlar həkimləri sadəcə şoka salıb. Məlum olub ki, nəm salfetlərdən istifadə edən şəxslərin 11%-də ciddi dəri xəstəlikləri əmələ gəlib. Bu göstəricilər eyni zamanda körpələri də əhatə edib. Sözügedən məlumat uzun müddət gizli saxlanılsa da, "Sydney Morning Herald" onu ictimaiyyətə təqdim edib.

Alimlər bu xəstəliklərin dəqiq hansı səbəbdən yarandığını araşdırmağa çalışır. Ehtimal olunur ki, salfetlərin hopdurduğu maddədə olan metilizotiazolin dermatitin üzə çıxmasına təsir göstərir.

# Obamaya 40 kiloluq paxlava aldı

**Türkiyədə səfərdə olan ABŞ-ın vitse-prezidenti Co Bayden və həyat yoldaşı Cill Bayden ölkələrinə geri qayıdıblar. Cütlük səfərdən ölkələrinə əliboş qayıtmayıb. Co Bayden Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşərkən onun həyat yoldaşı Cill Bayden, nəvəsi Naomi Bayden, ABŞ-ın Türkiyədəki səfirinin həyat yoldaşı Holli Holser Bass və ABŞ-ın İstanbuldakı konsulluğunun kordinatoru Selda Şerifsoy Çakır İstanbulda gəzintiyə çıxıblar. Qrup İstanbulun Karaköy səmtindəki məşhur şirniyyat brendlərindən birinin mağazasında da olub. Beş dəqiqə planlaşdırılan gəzinti 1 saatdan çox davam edib. Mağazada bütün şirniyyatların dadına tək-tək baxan xanım Bayden Ağ Evə aparmaq üçün dadını daha çox bəyəndiyi fıstıqlı paxlavadan 40 kiloqram alıb.**



# Sarımsaq infarktdan qoruyur

**Kaliforniya Universitetinin alimləri araşdırmalar nəticəsində aşkar ediblər ki, sarımsaq ekstraktı damarları xolesterindən təmizləyir və ürək xəstəliklərinin inkişafının riskini azaldır. Xolesterin (yağa oxşayan maddə) qan damarlarının daxili divarlarında pilək şəklində yığılır ki, nəticədə damarlar daralır, öz elastikliyini itirir, iltihablaşır. Bu isə ürək-damar sistemi xəstəliklərinin, infarktın inkişafına səbəb olur.**

Xarici mətbuatın məlumatına görə, araşdırmalarda müxtəlif yaşlarda olan (40-75 yaş arası) 55 nəfər iştirak edib. İştirakçıları 2 qrupa bölüblər. Bir qrupa daxil olanlara hər gün 2400 mq sarımsaq ekstraktı verilib, 2-ci qrupa isə verilməyib. Eksperiment 1 il ərzində davam edirdi. İştirakçılar eksperimentdən əvvəl və eksperiment qurtardıqdan sonra ürək-damar sisteminin müayinəsindən keçiblər. Araşdırma qurtardıqdan sonra məlum olub ki, sarımsaq ekstraktı qəbul edən insanların damarlarında xolesterin pilələrinin sayı xeyli azalıb. Bundan əvvəlki araşdırmalar göstərib ki, xırda doğranmış təzə sarımsaq ürəyin fəaliyyətinə müsbət təsir edir, qan dövranını yaxşılaşdırır. Diabet xəstələrində sarımsağın qəbulu ürək xəstəliklərinin inkişafının riskini azaldır.





# 5 övlad gözləyən ana

**"Hər gecə ən azı 12 dəfə vanna otağına gedirəm. Belimdə, qarnımda daim ağrılar var. Üstəlik, gündə 6 min kalori yeməliyəm. Çətindir, çox çətindir. Amma əzab çəksəm də, sevinirəm". Avstraliyanın Pert şəhərinin sakini, 26 yaşlı Kim Tuççi hamilədir. Onun hamiləliyinin başa çatmasına az qalıb. 4 ay əvvəl keçirilmiş ultrasəs müayinəsi Kimin bətnində beşəm əkizlər olduğunu göstərib. Beləcə, Kim ana olacaq və bir gündə 5 övladını dünyaya gətirəcək.**

Milli.az tanınmış fotoqraf Erin Elizabetin facebook səhifəsinə istinadən bildirir ki, iki qız anası olan Kimin beşəmləri dünyaya gələndən sonra Tuççi ailəsindəki uşaqların sayı 7-yə çatacaq. "Üçüncü övladıma hamilə qalanda artıq bilirdim ki, bətnimdəki tək uşaq deyil, əkizlərdir. İki övlad olduğunu düşünürdüm. Amma bətnimdə 5 nəbzin vurduğunu öyrənəndə şoka düşdüm. Onlar 5 nəfərdir. Dörd qız və bir oğlan..." - Kim Tuççi facebookdakı səhifəsində yazıb.

Onun facebookdakı "Surprised by Five" səhifəsi ttps://www.facebook.com/FivebySurprise/timelinenin daimi təqibçilərinin sayı artıq 136 mini keçib. Kim Tuççi bildirir ki, gündə üç dəfə yeyir və hər dəfə bir adamın gündəlik rasionundakı kaloriləri qəbul edir: "Bu minvalla hər gün üç adamın yeməyini yeyirəm. Bətnimdəki 5 insan bu qədər yeməyimi şərtləndirir".





**QOÇ** - İndiki məqamda lovğalıq və özündənrazılıq kimi hisslər sizə başucalığı gətirən deyil. Bu səbəbdən də reallığa qiymət vermək lazımdır. Planlarınızı gerçəkləşdirməkdə təcrübəli adamlardan yararlanın.

**BUĞA** - Yaxşı olar ki, sizə aidiyyatı olmayan məsələlərə qarışmayasınız. Əlavə başağrısı nəyinizə lazımdır? Öz ideyalarınızı reallaşdırmağa çalışın. Əsas vaxtınızı isə sevgiyə yönəldin.

**ƏKİZLƏR** - Bu maraqlı təqvimdə səfərə çıxmaq üçün şanslarınız var. Odur ki, hazırlaşmağa dəyər. Yalan vədlər vermək, yaxın adamları aldatmaq sizə zərər yetirə bilər. Bəxtinizdə pul da var.

**XƏRÇƏNG** - Qarşılıqlı münasibətlər zəminində bəzi xoşagəlməzliklərlə rastlaşa bilərsiniz. Odur ki, özünüzü mümkün qədər cilovlamalısınız. Nəqliyyatdan az yararlanın. Fiziki işlərə ara verin.

**ŞİR** - Bəxtinizdə mistik bir gün durur. Belə ki, qeyri-adi hadisələr, anlaşılmaz situasiyalar sizi müşayiət edəcək. Hisslərinizə nəzarət etməyi unutmayın. Ziyarətgahlara da baş çəkin.

**QIZ** - Mənfi yüklü Ay bürcünüzdə qərar tutsa da, ovqatınız yaxşı olacaq. Ətrafınızdakı hadisələr sizə sevinc bəxş edəcək. Saat 14-dən sonra şəxsi büdcənizi artıra bilərsiniz.

**TƏRƏZİ** - Ulduzlar ilk növbədə əsəblərinizi qorumağı tövsiyə edir. Çünki indiki məqamda çılğınlıq etməyiniz sizi çox şeydən məhrum edə bilər. Əməkdaşlıqda isə uğurlarınız gözlənilir.

**ƏQRƏB** - Bacardığınız qədər neytral olun. Yeni işlərə başlamaq, risk etmək, hansısa qeyri-müəyyən münaqişələri yatırtmaq fikrinə düşməyin. Yalnız adi işlər görməklə bu təqvimi başa vurun.

**OXATAN** - Qarşınızda mübahisəli bir təqvim durur. Hisslərinizi cilovlayın. Başqaları haqqında əmin olmadığınız rəy bildirməyin. Dondurduğunuz işləri isə saat 18-dən sonra davam etdirə bilərsiniz.

**OĞLAQ** - Şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Amma bir az diqqətli olun. Çalışın ki, "qatara" gecikməyəsiniz. Nahardan sonra xoşagəlimli hadisələr olmalıdır. Qohumlarınızla əlaqə saxlayın.

**SUTÖKƏN** - Maliyyə problemlərinizin artmasına baxmayaraq iş prinsipində hər şey ürəyinizcə olacaq. Ola bilsin ki, sizi narahat edən bəzi fəaliyyət sahələrində irəliləyiş baş versin.

**BALIQLAR** - Ulduzların düzümü təxminən saat 13-dək riskli işləri təxirə salmağı tövsiyə edir. Əks təqdirdə mübahisələrə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə yeni təkliflər alacağınız gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Aldadıldığı üçün 15 milyon dollar tələb edir



**43 yaşlı amerikalı aktrisa Sofiya Verqara bir kosmetika firmasını məhkəməyə verib. Milli.az Türkiyənin "Vətən" qəzetinə istinadən xəbər verir ki, Verqara reklamında ondan icazəsiz olaraq fotosunu istifadə edən firmadan 15 milyon dollarlıq təzminat tələb edib. O, özünü "aldadılmış və fanatlarını aldatmış kimi" hiss etdiyini bildirib.**

Qeyd edək ki, aktrisa ötən il həmkarı Co Mancaniello ilə ailə qurub. Aktrisanın birinci evliliyindən 22 yaşlı oğlu var.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300